RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 101 (9846) 17 may 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır

## İlham Əliyev Avropada ən çox arzuolunan liderdir

Azərbaycan Prezidenti İlham Əliyev Albaniyaya işgüzar səfəri çərçivəsində mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimində və "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib.

Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına işgüzar səfəri mayın 16-da başa çatıb.

2-3



## Qlobal nüfuzun göstəricisi

Bu gün ölkəmiz həm də yeni və ədalətli dünya nizamı naminə həyata keçirdiyi siyasəti, baş verən münaqişələrdə daim ədalətin və beynəlxalq hüququn yanında olması, problemlərin dialoq yolu ilə həll olunmasına tərəfdar çıxması ilə böyük diqqət və rəğbət görür. Ötən cümə axşamı Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Prezident İlham Əliyevə zəng edərək Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verməsi, baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə etməsi də elə bu qəbildəndir.

Ümumiyyətlə, Bakının həyata keçirdiyi çoxşaxəli beynəlxalq siyasət ölkəmizin həm Şərq, həm də Qərb ölkələri ilə uğurlu əlaqələr qurmasına mühüm zəmin yaradır.

Apreldə Prezident İlham Əliyevin Türkiyəyə və Çinə səfər etməsi, həmçinin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə gəlmələri buna nümunədir.

7

## Azərbaycan Avropanın getdikcə daha vacib tərəfdaşına çevrilir

İlk neftini 2005-ci il mayın 25-də Bakı yaxınlığındakı Səngəçal terminalından qəbul edən və bir il sonra onu Türkiyənin Ceyhan limanına çatdıran Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri 20 ilə yaxındır tam sistem kimi ahəngdar fəaliyyət göstərir. BTC öz yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyır. Təxminən eyni vaxtdan Cənubi Qafqaz Boru Kəməri də (CQBK) istifadəyə verilərək Azərbaycan qazını Gürcüstana çatdırıb. Daha sonra CQBK-ya Gürcüstan-Türkiyə sərhədində qoşulan 280 kilometrlik xətlə qaz 2007-ci ilin yayından Ceyhana ixrac olunur. Bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanan bu marşrut Azərbaycanı dünyada təkcə neft deyil, həm də qaz ixrac edən ölkə kimi tanıdıb.

Əgər əvvəl Azərbaycan qazını Gürcüstan və Türkiyə alırdısa, 2020-ci il son günündən başlayaraq mavi yanacaq Avropaya da ixrac edilir. Azərbaycandan qaz alan ölkələrin sayı getdikcə artır. 2027-ci ilədək qaz ixracının artırılması barədə Avropa İttifaqı və ölkəmiz arasında bir neçə il əvvəl Anlaşma Memorandumu da imzalanıb.

7





## Savaş kimi barış danışıqları da uzanana oxşayır

Dünən səhər saatlarında Ukrayna Prezidenti Ofisinin rəhbəri Andriy Yermak, müdafiə naziri Rustem Umerov və xarici işlər naziri Andriy Sibiqa Böyük Britaniya, Almaniya və Fransadan olan milli təhlükəsizlik müşavirləri, həmçinin Keyt Kelloq ilə görüşüblər. A.Yermakın verdiyi məlumata görə, Rusiya nümayəndə heyəti ilə görüşdən əvvəl mövqelər yekun olaraq razılaşdırılıb. O, rəsmi "Teleqram" kanalında yazıb: "Ukrayna sülhə, uzunmüddətli və qeyd-şərtsiz atəşkəsə hazırdır. Biz də ən yüksək səviyyədə görüşlərə və danışıqlara hazırıq. Ukrayna nümayəndə heyəti qeyd-şərtsiz atəşkəsə nail olmaq üçün bu gün İstanbuldadır - bu, bizim prioritetimizdir". A.Yermak əlavə edib ki, Ukrayna Prezidenti Volodimir Zelenski ilə müəyyən səbəbdən Türkiyəyə gəlməyən Rusiya lideri Vladimir Putinin birbaşa görüşü də mühüm məsələdir.

12

## Terrorun sonu yoxdur

Terror təşkilatı olan PKK Türkiyə dövlətinə qarşı həmişə amansız mövqedə olub və vaxtaşırı terror aktları törətməklə qardaş ölkənin təhlükəsizliyinə ciddi təhdid yaradıb. Son 40 ilə yaxın bir dövrdə PKK terrorçuları tərəfindən 40 mindən çox insan məhv edilib, infrastruktura ciddi ziyan vurulub. Abdullah Öcalanın bilavasitə rəhbərliyi ilə 1970-ci ildə yaradılmış terror təşkilatı bütün hallarda türk xalqına qənim kəsilib, Türkiyəni istəməyən qüvvələrin məkrli niyyətlərinin həyata keçirilməsində böyük rol oynayıb. PKK terror təşkilatının fəaliyyətini dayandırmasının böyük əks-səda yaratması səbəbsiz deyil və bu, ölkədə təhlükəsizliyin və əmin-amanlığın yaradılması baxımından çox əhəmiyyətlidir. Azərbaycan dövləti üçün də bu hadisə böyük önəm kəsb edir. Çünki Türkiyənin təhlükəsizliyi bizim üçün həyat, həm də qardaşlıq məsələsidir.

Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsini mühüm bir hadisə kimi qarşılayıb və Türkiyə xalqını ürəkdən təbrik edib.

8



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya işgüzar səfəri

# Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır

## İlham Əliyev Avropada ən çox arzuolunan liderdir

## Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentləri ilə görüş

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşü olub.**





AZƏRTAC xəbər verir ki, Antonio Koşta və Ursula fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini dedilər.

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta dəhlizdə aparıcı rolu vurğulandı. Bununla yanaşı, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da məmnunluqla qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxundu. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu dedi, bu gün Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğuladı.

Ölkəmizin Orta dəhlizdə oynadığı vacib rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd etdi. Dövlətimizin başçısı Orta dəhlizlə yüklərin daşınma həcminin artdığını da dedi.

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunuldu.

Avropa İttifaqı ilə əməkdaşlıq üçün bu istiqamətlərdə geniş imkanların olduğu qeyd edildi.

Görüşdə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrə toxunuldu, bu sahədə də Avropa İttifaqı ilə əməkdaşlıq üçün böyük perspektivlərin mövcud olduğu vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimində iştirak edib







**Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

*Ardı 3-cü səh.*







◆ Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya işgüzar səfəri

# Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır

## İlham Əliyev Avropada ən çox arzuolunan liderdir





## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimində iştirak edib

*Əvvəli 2-ci səh.*

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər. Tədbirdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunur. Qeyd edək ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib




Mayın 16-da Tiranada "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Azərbaycan Prezidenti İlham Əliyevlə Albaniyanın Baş nazirinin işçi nahar əsnasında görüşü olub



**Mayın 16-da Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının uğurla təşkil edilməsi münasibətilə Baş nazirə təbriklərini çatdırıb.

Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti və Albaniyanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

## Prezident İlham Əliyevin Albaniyaya səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına işgüzar səfəri mayın 16-da başa çatıb.

## Milli Məclisin iclasında

# İnsan alverinə qarşı mübarizə tədbirləri səmərəli və effektivdir

**Mayın 16-da Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova 12 məsələnin müzakirə ediləcəyini, birinci məsələnin İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatının olduğunu bildirib.**




Daxili işlər nazirinin birinci müavini, Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru Seyfulla Əzimov 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı təqdim edib. O bildirib ki, 2024-cü il ölkəmizin bir sıra dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birgə insan alverinə qarşı mübarizə sahəsində tədbirlər, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi davam etdirilib. Müvafiq tədbirlər çərçivəsində "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, "2025-2030-cu illər üçün Milli Fəaliyyət Planı", dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələbləri əks etdirən normativ sənəd layihələri üzərində işlər tamamlanaraq aidiyyəti üzrə təqdim olunub.

Milli Koordinator diqqətə çatdırıb ki, Milli Fəaliyyət Planının icrası çərçivəsində mütəmadi olaraq əhali ilə görüşlər keçirilərək doğumun qeydiyyatının əhəmiyyəti və məcburiliyi barədə məlumatlandırma işi aparılıb. Hesabat ilində dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilməsi riskinin azaldılması məqsədilə onlara sosial-hüquqi və sosial-psixoloji xidmətlər, eləcə də məşğulluqlarının təmin edilməsi ilə bağlı yardımlar davam etdirilib. Bununla yanaşı, Azərbaycanda və əcnəbilər tərəfindən övladlığa götürülmüş uşaqların həyat şəraitinin öyrənilməsi məqsədilə 1265, himayədar ailələrə verilmiş uşaqlarla bağlı 231 monitorinq aparılıb. Aparılan monitorinqlərlə aşkarlanmış 100 küçə uşağından 86-nın ailəsinə səfər edilib, baxımsız vəziyyətdə olan 5 uşaq agentliyin sığınacağına, 1 uşaq körpələr evinə yerləşdirilib, 30 uşağın şəxsiyyətini təsdiq edən sənədlərin alınması təmin edilib, təhsildən yayınan uşaqlar Elm və Təhsil Nazirliyinə, sağlamlıq problemləri ilə əlaqədar isə TƏBİB-ə yönləndirilib.

Qeyd olunub ki, insan alverinə qarşı mübarizədə iştirak edən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının maliyyə təminatının artırılması məqsədlə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən elan edilmiş qrant müsabiqəsi çərçivəsində 10 müvafiq təşkilata 140.500 manat, insan alveri cinayətlərinin qurbanı olmuş şəxslərin sosial reabilitasiyasına, sığınacaqda saxlanılmasına və onlara birdəfəlik müavinətlərin verilməsinə Daxili İşlər Nazirliyi tərəfindən 60.000 manata yaxın vəsait ayrılıb.

Hesabat ilində insan alverinə qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar, təyinat və mənbə ölkələrinin aidiyyəti dövlət və qeyri-dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi işi davam etdirilib. O cümlədən xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəlikləri və ixtisaslaşmış beynəlxalq qurumlarla informasiya və təcrübə mübadiləsi aparılıb, habelə ABŞ-nin Dövlət, Ədliyyə və Əmək departamentlərinin, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunun (QRETA), BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində verilən tövsiyələr və sorğular cavablandırılıb.

Bildirilib ki, ötən il Əmək Məcəlləsində edilən dəyişikliyə əsasən ölkə üzrə əmək müqavilələrinin elektron sənəd formasında bağlanılmasına, əmək müqavilələrinə xitam əmrlərinin elektron imza ilə işçinin şəxsi kabinetinə göndərilməsinə, əmək münasibətləri ilə bağlı əmrlərin elektron uçotunun aparılmasına, işçi və işəgötürən arasında yazışmaların elektron kabinetlər vasitəsilə həyata keçirilməsinə, qanunvericiliyin düzgün tətbiqi üçün xəbərdarlıqların və məhdudiyyətlərin tətbiqinə başlanılıb.Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti obyektlərində keçirilmiş 30 səyyar yoxlama zamanı 1.002 işçidən 57-nin əmək və ya xidməti müqaviləsinin olmadığı aşkarlanıb, 12 işəgötürən hüquqi və fiziki şəxs barəsində 105.000 manat məbləğdə inzibati cərimə tətbiq edilib. Dövlət Əmək Müfəttişliyi Xidmətinin vətəndaş müraciətləri əsasında apardığı yoxlamalarla isə 676 şəxsin əmək müqaviləsi olmadan işləməsi müəyyən edilərək işəgötürənlər ümumilikdə 2.643.000 manat məbləğdə, habelə 7 fakt üzrə işçini əmək funksiyasına aid olmayan işi yerinə yetirməyə məcbur etməyə görə aidiyyəti vəzifəli şəxslər 8000 manat məbləğdə cərimələnib. Bununla yanaşı, İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 1 məcburi əmək faktı üzrə cinayət işi başlanılıb və zərərçəkmiş şəxslərin ölkə daxilində məcburi dilənçiliyə məruz qalması müəyyən olunub. İnsan alveri və məcburi əmək qurbanlarının aşkarlanması məqsədilə keçirilmiş tədbirlər zamanı isə 4 miqrasiya kanalı müəyyən olunaraq 15 əcnəbi saxlanılıb.

Cinayət təqibi və qurbanlarla iş sahəsində görülmüş iş barədə danışan Seyfulla Əzimov insan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi, istismar hallarına yol verən şəxslər haqqında müvafiq məsuliyyət tədbirlərinin görülməsi məqsədilə xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 161 insan alveri faktı və insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 44 cinayət faktının aşkarlandığını qeyd edib.

Nəzərə çatdırılıb ki, informasiya texnologiyalarının tətbiqi ilə törədilmiş 44 müvafiq fakt da aşkarlanaraq cinayət işləri başlanılıb, həmçinin aparılmış monitorinqlərlə insan alverinin təbliği ilə məşğul olan 156, cari ilin ötən dövründə isə 124 teleqram kanalı, "İnstaqram" və "TikTok" hesabı bağlanılıb.

Qeyd olunub ki, insan alveri və məcburi əməklə bağlı olan cinayət işləri üzrə müəyyən edilmiş 91 insan alveri qurbanının hamısı Azərbaycan vətəndaşı olub. Onlardan 53-ü Türkiyədə, 35-i Birləşmiş Ərəb Əmirliklərində, 2-si Qətər Dövlətində cinsi istismara, 1 nəfəri isə ölkə daxilində əmək istismarına məruz qalıb.

Milli Koordinator vurğulayıb ki, insan alveri qurbanlarının müdafiəsi, bu istiqamətdə hüquqi, sosial-iqtisadi tədbirlərin icrası da diqqətdə saxlanılıb. Onlardan 80 nəfərinin hər birinə 700 manat birdəfəlik müavinət ödənilib, 56 nəfəri müvəqqəti yaşaması üçün Daxili İşlər Nazirliyinin müvafiq sığınacağına yerləşdirilərək tibbi, sosial, psixoloji, hüquqi və digər yardımlarla təmin edilib. Daha 18 qurban peşə kurslarına yönəldilib, 9 nəfəri işlə təmin edilib, 1 əcnəbi qurbanın repatriasiyasında, 9 qurbana şəxsiyyət vəsiqəsi və 11 qurbanın ünvanlı sosial yardım almasında, 2 uşaq qurbanın təhsilini davam etdirməsi üçün İnteqrasiya təlimli internat məktəbinə qəbul olunmasında kömək göstərilib, 44 qurbanın ailəsinə qayıdışı təmin olunub.

Diqqətə çatdırılıb ki, müvafiq sahədə davamlı hüquqi islahatların həyata keçirilməsi, insan alveri cinayətlərinin iştirakçılarının təqibi, qurbanların aşkarlanması üçün süni intellekt, rəqəmsal alətlərdən səmərəli istifadə edilməsi, müasir texnologiyaların tətbiqi ilə profilaktika işinin genişləndirilməsi və səmərəsinin artırılması qarşıda duran əsas vəzifələrdəndir.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı barədə bu komitənin rəyini təqdim edib. O, insan hüquq və azadlıqlarının təmin olunmasında üzərinə mühüm vəzifələr düşən Milli Koordinator institutunun yaradılmasının 20 ilinin tamam olduğunu qeyd edərək, hüquq-mühafizə orqanlarının dövlətçiliyə xidməti və sədaqətinin, Ulu Öndər Heydər Əliyev məktəbini keçərək formalaşan yüksək peşəkarlığının müstəqilliyimizin bərpasından sonra daha da inkişaf etdiyini vurğulayıb. Bildirib ki, 2003-cü ildə yenicə Prezident seçilən İlham Əliyev ölkəmizdə ictimai təhlükəsizliyi və sabitliyi qoruyanların birnömrəli müdafiəçisi olduğunu nümayiş etdirib.

Komitə sədri qeyd edib ki, Milli Məclisə təqdim edilən məlumat təkcə Baş İdarənin deyil, ölkə üzrə 32 mərkəzi və 69 yerli icra hakimiyyəti orqanının fəaliyyətinin nəticəsidir. Sənəd 4 istiqamət üzrə, o cümlədən cinayətin qarşısının alınması, qurbanlara yardım və müdafiə, cinayətkarların təqibi və beynəlxalq əməkdaşlıq tədbirlərini özündə ehtiva edir.

Zahid Oruc deyib ki, məlumatda "2025-2030-cu illər üçün Milli Fəaliyyət Planı"nın hazırlandığı bildirilir. Digər məsələ, gizli xarakterə malik transmilli cinayətin şəbəkə halında informasiya texnologiyalarıkibermakanda qarşısının alınmasıdır. O, insan alveri-traffikinginin sosial şəbəkələr üzərindən yeni tranzit kanallarının aşkarlanması və təqibi, onlayn məkana köçən kibercinayətlərin qarşısının alınması sahəsinə də xüsusi diqqət göstərildiyinin təqdirəlayiq olduğunu söyləyib. İnsan alverinin yoxsulluq, əhalinin səmərəli məşğulluğu, təhsil, sosial müdafiə və digər sahələrə də təsir göstərdiyini qeyd edib. Bununla yanaşı, bildirilib ki, beynəlxalq hesabatlarda insan alveri sahəsində qlobal indeks və reytinqlərdə ölkəmiz müsbət indikatorlara malikdir.

Komitə sədri qeyd edib ki, Baş İdarəyə vətəndaşların etimadının mühüm göstəricilərindən biri "152" qaynar xəttinə 10.254 zəngin edilməsidir. Ötən illərlə müqayisədə müraciətlərin artması problemə həssas münasibətin göstəricisidir. O, nəzərə çatdırıb ki, son 20 ildə insan alveri üzrə cinayətlərin ümumi sayı 2.532 təşkil edib. Müxtəlif illərdə dinamika dəyişib, hazırda isə dövlətin sistemli tədbirləri hesabına sabit bir tendensiya müşahidə olunur.

Komitə sədri Milli Koordinatorun illik fəaliyyətinin yüksək qiymətləndirildiyini bildirib, təkliflərini səsləndirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ilə bağlı rəhbərlik etdiyi komitənin mövqeyini diqqətə çatdırıb. O, 2024-cü il üzrə insan alverinə qarşı mübarizə haqqında məlumatın son Milli Fəaliyyət Planının yekunu olduğunu, yeni Fəaliyyət Planının hazırlanacağını söyləyib. Komitə sədri deyib ki, ötən illər ərzində Daxili İşlər Nazirliyi, digər dövlət orqanları bu sahədə sistemli, davamlı və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərib və müsbət nəticələr əldə olunub. O, həm insan alverinə qarşı mübarizə sahəsində, həm də bütövlükdə mütəşəkkil cinayətkarlığa qarşı həyata keçirilən peşəkar fəaliyyəti xüsusi vurğulayıb.

Əli Hüseynli bildirib ki, 2025-2030-cu illər üçün yeni Fəaliyyət Planında dünyada və regionda baş verən bir sıra münaqişələr insan alveri üçün yeni təhdidlər kimi qiymətləndirilməli və bu amillər gələcəkdə nəzərə alınmalıdır. Eyni zamanda rəqəmsal alətlərin və müasir texnologiyaların tətbiqi, insan hüquqlarının səmərəli müdafiəsi əsas vəzifələrdən olmalıdır.

Məsələ ilə bağlı müzakirələrdə komitə sədri Fazil Mustafa, deputatlar Qüdrət Həsənquliyev, Razi Nurullayev, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Aydın Mirzəzadə, Azər Allahverənov çıxış ediblər, qeyd və təkliflərini söyləyiblər.

Milli Məclisin Sədri Sahibə Qafarova məsələyə münasibət bildirərək, millət vəkillərinin seçicilərlə görüşləri zamanı maarifləndirmə işində fəallıq göstərməsinin əhəmiyyətindən danışıb.

Müzakirələrin sonunda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun 2024-cü ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı nəzərə alınıb.

Daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov deputatlara dəstəyə görə təşəkkür edib, səsləndirilən təkliflərin gələcəkdə nəzərə alınacağını söyləyib.

Daha sonra iclasda "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri gündəliyin digər 5 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, dəyişikliyin məqsədi Nazirlər Kabinetinin Milli Məclis qarşısında verdiyi hesabatın təqdimedilmə prosedurunun çevikliyinin artırılması ilə bağlıdır. Təklif edilən dəyişikliyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatının vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda müəyyən ediləcək. Layihədə hesabatın verilməsi vaxtının martın 31-dək, yəni ilin I rübü ilə məhdudlaşdırılması təklif olunur.

Deputat Qüdrət Həsənquliyev məsələ barədə fikirlərini açıqladıqdan sonra konstitusiya qanununun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "İstilik təchizatı haqqında" qanun layihəsini təqdim edib. O, sənədin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən enerji siyasətinin, bu sahədə aparılan qanunvericilik islahatlarının tərkib hissəsi olduğunu qeyd edib. Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində Azərbaycanın təkcə regionda deyil, qlobal miqyasda enerji təhlükəsizliyinə töhfə verdiyini vurğulayıb.

Diqqətə çatdırılıb ki, 7 fəsil, 26 maddədən ibarət qanun layihəsi istilik enerjisinin istehsalı, paylanması (o cümlədən ötürülməsi), satışı və istehlakı ilə bağlı istilik təchizatı subyektləri, istehlakçılar və istilik təchizatı sektorunda fəaliyyət göstərən dövlət orqanları (qurumları) arasında yaranan münasibətləri tənzimləyir, istilik təchizatının hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Layihədə əsas anlayışlar verilir, qanunun istilik və isti su təchizatı məqsədilə istilik enerjisinin istehsalı, paylanması və satışı funksiyasını həyata keçirən istilik təchizatı subyektlərinə, istehlakçılara, dövlət orqanlarına, o cümlədən tənzimləyiciyə şamil olunduğu bildirilir.

Sənəddə istilik təchizatı sektorunda dövlət siyasətinin əsas prinsipləri, dövlət tənzimlənməsinin məqsədləri və dövlətin vəzifələri müəyyən edilir. Həmçinin istilik təchizatı sektorunda tənzimləyicinin səlahiyyətləri, bu sahədə fəaliyyət növləri, istilik enerjisi istehsalçısının, paylayıcısının və satıcısının, habelə istehlakçının vəzifə və hüquqları müəyyənləşdirilir.

Bununla yanaşı, qanunda tikinti obyektlərinin şəbəkəyə qoşulması şərtləri, istilik təchizatının dayandırılması halları, istilik təchizatı sektorunda hesablaşma ilə bağlı müddəalar yer alıb. Habelə bərpaolunan enerji mənbələrindən və su ehtiyatlarından istifadə, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi, ətraf mühitin mühafizəsinə dair maddələr də öz əksini tapıb.

Məsələ ətrafında müzakirələrdə komitə sədri Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Göydəniz Qəhrəmanov, Pərvanə Vəliyeva, Məlahət İbrahimqızı, Vüqar Rəhimzadə çıxış edərək qeyd və təkliflərini açıqlayıblar.

İclasda iştirak edən energetika nazirinin müavini Orxan Zeynalov, "Azəristiliktəchizat" ASC-nin sədri İlham Mirzəliyev çıxışlarda qaldırılan məsələlərə münasibət bildiriblər, verilən sualları ətraflı cavablandırıblar.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov gündəliyin onuncu məsələsi - Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, qanun layihəsinə təklif edilən dəyişikliklər ilk növbədə insan və vətəndaş hüquq və azadlıqlarının, mülkiyyət və ictimai qaydanın daha effektiv formada cinayətkar qəsdlərdən qorunması məqsədilə hazırlanıb.

Cinayət Məcəlləsinə edilən dəyişikliyə əsasən, cinayət məsuliyyətindən azadetməni nəzərdə tutan maddələrin dairəsinə, həmçinin şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azadetmə (Cinayət Məcəlləsi, maddə 74) halının da əlavə edilməsi təklif olunur. Bundan başqa, oğurluq, yəni özgənin əmlakını gizli olaraq talamaya görə Cinayət Məcəlləsinin 177-ci maddəsinin sanksiyasına üç ilədək müddətə azadlıqdan məhrumetmə cəzasının təklif edilməsi, bu cinayət əməlinin böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasından çıxarılmasına və az ağır cinayət hesab edilməsinə səbəb olur.

Eyni zamanda Cinayət-Prosessual Məcəlləsi üzrə istintaq və təhqiqat orqanlarının struktur qurumlarının rəhbərlərinə cinayət təqibinə nəzarət çərçivəsində cinayət işi üzrə icraatın əhəmiyyətli dərəcədə ləngiməsinin qarşısının alınması məqsədilə müvafiq səlahiyyətlərin verilməsi təklif edilir. Digər dəyişikliyə əsasən, cinayət işinin başlanmasına qədər aparılmasına icazə verilən iki və daha artıq istintaq və ya digər prosessual hərəkətlər həyata keçirildikdə, cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlamanın 30 gündən artıq olmayan müddətlə məhdudlaşdırılması nəzərdə tutulur. Həmçinin son dövrlərdə müasir informasiya texnologiyalarından istifadə olunmaqla əhalinin bank kartı hesablarından pul vəsaitlərinin talanması hallarında bu cinayətlərin təqibinin operativliyini təmin etmək məqsədilə Cinayət-Prosessual Məcəlləsinin 446 və 447-ci maddələrinə müvafiq dəyişikliklər təklif edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O bildirib ki, sənəd sağlamlığın qorunması hüququnun daha effektiv təmin edilməsi, həyat və sağlamlıq əleyhinə olan bəzi cinayətlərə qarşı mübarizənin gücləndirilməsi məqsədilə hazırlanıb. Bu məqsədlə bir sıra cinayət əməllərinin sanksiyalarında dəyişiklik edilərək müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına alternativ olan digər əsas cəzalar çıxarılmaqla və bu əməllərə görə sağlamlığa vurulan ağır nəticələr tövsifedici əlamətlər kimi ayrı maddələrdə nəzərdə tutulmaqla cəzalar sərtləşdirilir. Bildirilib ki, səhiyyə sahəsində islahatlar aparılaraq tibb fəaliyyəti ilə məşğul olmağı tənzimləyən yeni qaydalar qəbul edilib. Layihədən göründüyü kimi, həm Cinayət, həm də İnzibati Xətalar məcəllələrinin müvafiq maddələrinin dispozisiyaları təkmilləşdirilərək səhiyyə qanunvericiliyində müəyyən edilmiş yeni qaydaların pozulması bu hüquqpozmaların obyekti kimi nəzərdə tutulub.

Layihə ilə bağlı deputat Rəşad Mahmudovun fikirləri dinlənildikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Növbəti məsələni - Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Komitə sədri bildirib ki, layihədə 4 hüquqi akta ümumilikdə 12 maddə üzrə 34 adda dəyişiklik təklif olunub. Layihədə adıçəkilən digər qanunlara ediləcək dəyişikliklər "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda nəzərdə tutulan dəyişikliklərdən qaynaqlanır. Qeyd olunub ki, layihədə nəzərdə tutulan və mütərəqqi müddəalarla zəngin olan yeni normalar tibb mütəxəssislərinin peşə yararlılığının, onların peşəkarlığının yüksəldilməsi işinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

O, layihə hazırlanarkən istifadə olunmuş dünya təcrübəsindən söz açıb, qanunvericiliyimizdə ilk dəfə təsbit edilən "Davamlı peşəkar inkişaf (DPİ)" anlayışının mütərəqqi əhəmiyyətini vurğulayıb. Sənəddə təsbit olunan tibb işçilərinin sertifikasiyası prosesi ilə bağlı əsas yenilikləri, mövcud qaydalara təklif olunan müddəaları və digər mütərəqqi dəyişiklikləri diqqətə çatdıran komitə sədri DPİ üzrə minimum kredit ballarının toplanılması mexanizmini şərh edib. Təklif olunan yeni dəyişikliklərə əsasən, tibb işçilərinə şərait yaradılır ki, onlar öz sertifikat şəhadətnamələrini ya 5 ildən bir imtahan yolu ilə, ya da 5 il ərzində 250 kredit balı yığmaqla əldə etsinlər. Mütəxəssislər bu balı toplamaqla imtahandan azad olunurlar. Kredit balı hər il minimum 50 bal olmaqla, ümumilikdə 250 bal təşkil edir. Yəni mütəxəssislərin bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə alternativ mexanizm tətbiq olunacaq. Sözügedən kreditləri toplayan şəxslər qüvvəsi 5 il olan sertifikasiya şəhadətnaməsi əldə edəcəklər. Bu məqsədlə də qanunun 46-cı maddəsinin 3-cü hissəsi yeni redaksiyada verilir.

Bundan başqa, layihədə terminoloji dəqiqləşdirmə məqsədilə "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 47-ci və 48-ci maddələrində "tibb və əczaçılıq ixtisasları" sözləri "tibb və ya səhiyyə ixtisasları" sözləri ilə əvəz edilib. Həmçinin tibb mütəxəssislərinin ixtisaslarının dəyişdirilməsinə dair müddəanın "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda ləğv edilməsi təklif olunub.

Çıxışının sonunda Əhliman Əmiraslanov vurğulayıb ki, bu layihənin qəbul edilməsi hər zaman insanların sağlamlığının keşiyində duran peşə sahiblərinin inzibati resurslarla deyil, davamlı təhsil yolu ilə inkişaf etmələrinə böyük töhfə olacaq.

Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov məsələ barədə komitənin müsbət rəyini bildirib.

Qanun layihəsinin müzakirəsində deputatlar Qüdrət Həsənquliyev, Səyyad Salahlı, Vasif Qafarov, Göydəniz Qəhrəmanov, Sevinc Hüseynova, Rəşad Mahmudov, Əminə Ağazadə çıxış ediblər, qeyd və suallarını səsləndiriblər.

Müzakirələrin sonunda səhiyyə naziri Teymur Musayev çıxış edib, sənədə təklif olunan dəyişiklikləri zəruri edən amillərdən söz açıb, onların əhəmiyyətini diqqətə çatdırıb, deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, suallarını cavablandırıb. Nazir qeyd edib ki, Səhiyyə Nazirliyi tərəfindən hazırlanan layihədə nəzərdə tutulan və mütərəqqi müddəalarla zəngin olan tənzimləmələr tibb mütəxəssislərinin peşəkar inkişafını stimullaşdıracaq, onların peşəkarlığının yüksəldilməsinə və beynəlxalq peşəkar mühitə inteqrasiyasına hüquqi zəmin yaradacaq. O, layihədə təklif olunan "Davamlı peşəkar inkişaf (DPİ)" anlayışını, DPİ üzrə minimum kredit ballarının toplanılması mexanizmini şərh edib. Bildirilib ki, layihədə təsbit olunan daha bir yenilik isə sertifikasiya imtahanından keçməyən işçinin təkrar sertifikasiya imtahanından keçənə qədər 6 ay müddətində iş yeri ilə yanaşı, aylıq vəzifə maaşının saxlanılmasıdır. Bu müddəanı ölkə rəhbərliyinin hər zaman tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə göstərilən diqqət və qayğının davamı kimi dəyərləndirən nazir vurğulayıb ki, davamlı peşəkar inkişaf konsepsiyasının tətbiqi ilə tibb mütəxəssislərinin peşəkarlıqlarını artırmaları üçün imkanları genişlənəcək. Nəticədə tibb mütəxəssisləri tərəfindən vətəndaşlara daha keyfiyyətli tibbi xidmətlərin göstərilməsi təmin ediləcəkdir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# MDB-yə üzv dövlətlərin təhlükəsizlik orqanlarının növbəti iclası keçirilmişdir





**Mayın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində təşkil olunmuş MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 56-cı iclasında iştirak etmişdir.**

Tədbirdən əvvəl Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon MDB ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmiş, sonra iclas öz işinə başlamışdır.

MDB məkanında beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlıq və kibercinayətkarlığa, dini ekstremizm və radikalizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizənin aparılmasının, habelə region ölkələrinin üzləşdiyi xarici təhdidlərin vaxtında zərərsizləşdirilməsi məqsədilə xüsusi xidmət orqanları arasında məlumat mübadiləsinin aparılmasının vacibliyi iclasın əsas müzakirə mövzusu olmuşdur. Qeyd olunmuşdur ki, göstərilən istiqamətlərdə MDB ölkələrinin təhlükəsizlik orqanlarının fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun qurulması üçün bundan sonra da bütün imkanlar səfərbər edilməli, qurumların qüvvə və vasitələrindən təhlükəsizliyə mənfi təsir göstərən halların aradan qadırılması yönündə daima səmərəli istifadə olunmalıdır.

Tədbir ərzində MDB dövlətlərinin xüsusi xidmət orqanlarının qarşılıqlı əlaqələrinin gələcək perspektivləri və strategiyası, həmçinin qarşıda duran vəzifələr barəsində geniş fikir mübadiləsi aparılmışdır.

*"Azərbaycan"*

# Azərbaycan təmsilçiləri "Vindzor Kral Atçılıq Şousu - 2025"də möhtəşəm şou ilə çıxış ediblər





**Birləşmiş Krallıqda ənənəvi olaraq təşkil edilən "Vindzor Kral Atçılıq Şousu - 2025" start götürüb.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyada keçirilən ənənəvi "Vindzor Kral Atçılıq Şousu"nda ölkəmiz Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə ilk dəfə olaraq 130 nəfərlik nümayəndə heyəti ilə təmsil edilir. Bu ilin ən möhtəşəm çıxışlarından "Azerbaijan - Land of Fire" şou-kompozisiyasında çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, zərif Azərbaycan rəqsləri, ecazkar milli musiqimiz və 2025-ci il üçün yeni olan orkestrin çıxışları nümayiş etdirilib.

Dövlət Sərhəd Xidmətinin rəqs ansamblı və süvarilər dəstəsi 20 Qarabağ atı ilə ölkəmizi növbəti dəfə yüksək səviyyədə təmsil edərək tamaşaçıların böyük rəğbətini qazanıb. Şou-kompozisiyanın rəhbəri Əməkdar artist Gövhər Həsənzadə, quruluşçu rejissoru və xoreoqrafı Dövlət Sərhəd Xidmətinin əməkdaşı Əməkdar artist Fərid İbrahimov, süvarilər dəstəsinin məşqçisi baş təlimatçı İmran Əhmədli, Nümunəvi Hərbi Orkestrin baş dirijoru Əməkdar artist Səməd Vəkilovdur.

Böyük Britaniya tamaşaçısı milli musiqi alətlərimizin ifasında səslənən "Yallı", maestro Niyazinin "Qaytağı"sı, Emin Sabitoğlunun "İncə bellim"i, Müslüm Maqomayevin "Azərbaycan" mahnısının sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində qeyri-adi performanslarından ibarət şou-kompozisiyanı böyük heyranlıqla izləyib. 20 dəqiqə davam edən şou ərzində süvarilərimiz Azərbaycan Respublikası və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaqla diqqətləri cəlb edib, tədbir iştirakçıları tərəfindən coşqu ilə qarşılanaraq ayaq üstə alqışlanıblar.

Günün sonunda Vindzor qəsrində qonaqların şərəfinə təşkil olunmuş rəsmi ziyafətdə Əməkdar artist Afaq Abbasova-Budaqova və Səadət İsmayılova incə zövqlə seçilən piano ifaları ilə gecəyə xüsusi rəng qatıblar.

Qeyd edək ki, nümayəndə heyətimizin çıxışları may ayının 18-dək davam edəcək, mayın 17-si isə "Land of Fire" polo komandasının çıxışı baş tutacaq.

# Məhkəmədə beynəlxalq təşkilatların və xarici media qurumlarının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini təsdiqləyən faktlar tədqiq olunub





Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 16-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli tərəfindən Azərbaycanın vaxtilə Ermənistan tərəfindən işğal olunmuş suveren ərazilərində mədəni irsin məhv edilməsini əks etdirən sənədlərin tədqiqinə başlanılıb.

Belə ki, 1993-cü il aprelin 7-də xarici media subyektində nəşr olunan Kəlbəcərin Ermənistan ordusu tərəfindən işğalına dair məqalə tərcüməçi vasitəsilə tədqiq olunub.

Bildirilib ki, "Qafqazda hücumlar yeni qaçqın dalğası yaradır" sərlövhəli məqalədə Ermənistan ordusunun Kəlbəcərdə "uğurla" irəliləməsinin minlərlə azərbaycanlının öz torpağından qaçmağa məcbur qalmasına səbəb olduğu qeyd edilib. Yazıda bildirilib: "Bazar ertəsi Kəlbəcərdə qadınlar və uşaqlar helikopterlərə minməyə cəhd ediblər. Döyüşlərdən qaçan 39 minə yaxın insan qaçqın mərkəzlərində qeydiyyatdan keçib".

Məqalədə həmçinin qeyd edilir: "Murov keçidi, Azərbaycan, 6 aprel 1993-cü il. Onlar (azərbaycanlılar - red.) qarla örtülmüş düzənliklərdə qara nöqtələr kimi görünürdülər. Doqquz min fut (təxminən 2743 metr) hündürlüyündəki dağ keçidinin şimal yamacından enən üç nəfər öz torpaqlarında sığınacaq axtararaq irəliləyirdi. Meşə yoluna bənzər bir cığırda onların, əslində, beş nəfər olduğu məlum oldu.

Taqətdən düşmüş 30 yaşlarında bir kişi və qucaqlarında körpə uşaqları olan 20 yaşlarında iki qadın. Onların hamısı soyuqdan donurdu, meşədə və dağda 6 günlük yürüşdən sonra şok vəziyyətində idilər. Cənubi Qafqazda Ermənistan ordusu həftəsonu Kəlbəcəri ələ keçirərək minlərlə insanın qaçmasına səbəb olub və böyükmiqyaslı məcburi köçkün böhranı yaradıb.

Kəlbəcərin erməni qoşunları tərəfindən işğalı onlara (ermənilərə - red.) Qarabağı Ermənistanla şimaldan cənuba birləşdirən geniş ərazi üzərində nəzarət imkanı verib. Birinci əlaqə ötən il Laçında qurulmuşdu, bu yol qoşunların və təchizatın Qarabağa çatdırılması üçün istifadə olunurdu".

Bundan başqa, yazıda vurğulanır ki, yalnız Azərbaycan hökuməti deyil, həm də Kəlbəcərin işğalının əyani şahidi olan bir çox insanlar hücumun birbaşa Ermənistan ərazisindən həyata keçirildiyini bildiriblər. Qeyd edilib ki, Qarabağa açılan yeni "şimal dəhlizi" 100 kilometrdən çoxdur. Bu da faktiki olaraq Kəlbəcər bölgəsinin tam şəkildə ilhaqı deməkdir. ABŞ Qafqazdakı yeni hücumlara görə Ermənistanı qınayır.

Bu gün ABŞ Ermənistanı qonşu Azərbaycanın şimal-qərbində yerləşən əraziləri 11 gün əvvəl başlanan hücumlar nəticəsində ələ keçirdiyinə görə kəskin şəkildə qınayıb. ABŞ Dövlət katibi Varren Kristoferin bəyanatında administrasiya İrəvan hökumətini qüvvələrini dərhal geri çəkməyə çağırıb. Eyni zamanda o, bazar ertəsi Ermənistan Prezidenti Levon Ter-Petrosyana etiraz məktubunun təqdim olunduğunu qeyd edib".

Daha sonra "İzvestiya" qəzetinin 1993-cü il aprelin 2-də nəşr olunan buraxılışında işıq üzü görən məqalə tədqiq olunub.

Yazıda deyilir: "Ermənistan ordusu Kəlbəcər rayonunun ətrafına çatıb. Hücum həm Ermənistan, həm də Qarabağ tərəfdən həyata keçirilib. Kəlbəcər rayonu tam olaraq blokadaya alınıb, onu Azərbaycanın digər əraziləri ilə birləşdirən yollar artıq kəsilib. Şəhər daim raket, artilleriya hücumlarına və havadan bombardmana məruz qalır. Dinc əhali arasında çoxlu sayda ölən var. Minlərlə insanın taleyi məlum deyil".

Beləliklə, məhkəmə iclasında tədqiq olunan hər iki xarici mənbədə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərin işğalında, mülki əhalinin qətlə yetirilməsində iştirakı öz əksini tapıb və təsdiqlənib.

Sonra BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilən qətnamələr ingilis dilindən tərcüməçi vasitəsilə tədqiq olunub.

Məhkəmədə daha sonra beynəlxalq insan hüquqları müdafiəsi təşkilatının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə amansız hücumunu, mülki əhalini qətlə yetirməsini əks etdirən hesabatı tədqiq olunub.

Hesabatda bildirilir ki, Ermənistan ordusu Qarabağda ələ keçirdiyi bütün ərazilərdən Azərbaycanın mülki əhalisini qovub və ya girov götürüb. Qaçıb canını qurtarmağa çalışan insanları heç bir fərq qoymadan güllələyiblər.

Təşkilatın hesabatında genişmiqyaslı talan və mülki əhalinin əmlakının məhv edilməsi, 1993-cü ilin iyulunda Ağdamın Ermənistan ordusu tərəfindən işğalı, şəhərin talan edilməsi barədə məqamlar da yer alıb.

Sənəddə Ermənistan ordusunun Qarabağda baş vermiş döyüşlərdə iştirakı da tədqiq olunur. Vurğulanıb ki, Azərbaycanın mülki əhalisinin heç bir fərq qoyulmadan atəşə tutulması, bombardmana məruz qoyulması insanların məcburi şəkildə yerlərini dəyişmələrinə səbəb olub. Mülki əhali girov götürülüb, əmlakı talan edilib və yandırılıb.

Bundan əlavə, hesabatda həmin dövrdə Ermənistan Respublikasının hərbi cinayətlər törətməsi ilə əlaqədar Cenevrə Konvensiyasının ciddi şəkildə pozulduğu qeyd edilib. Hesabatda Ermənistan ordusunun hərbi qaydaları pozması, müharibə cinayətləri törətməsi halları da əksini tapır.

Girovlar, müharibə əsirləri ilə düzgün şəkildə davranılmaması və onların öldürülməsi kimi hallar da sənəddə yer alıb.

Sonra dövlət ittihamını müdafiə edən prokuror tərəfindən Azərbaycanın rayon, şəhər, qəsəbə və kəndlərinin Ermənistan tərəfindən işğalından sonra dağıdılmasını, viran qoyulmasını, mədəni, tarixi, dini abidələrin məhvini, infrastrukturun, mülki əmlakın, qəbiristanlıqların məhv olunmasını əks etdirən foto və videomateriallar təqdim olunub.

Bildirilib ki, işğal dövründə dini abidələrimiz və məscidlərimiz dağıdılmaqla yanaşı, həm də orada donuz saxlanılmaqla təhqir olunub.

İclasda həmçinin işğaldan azad edilmiş rayon, şəhər və kəndlərə baxış keçirilməsinə dair protokollar, həmin protokollara əlavə edilmiş foto və videogörüntülər nümayiş etdirilib.

Ardınca ibtidai istintaq zamanı keçirilmiş ekspertiza rəyləri elan olunub.

Qeyd edək ki, bu təcavüzkar müharibə zamanı Azərbaycanın mədəni sərvətinə aid olan tarix və mədəniyyət abidələrinin hücum obyektinə çevrilməsi hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə edilməsi, qəsdən böyük həcmdə yandırılması, artilleriya qurğularından atəşlər açıb partladılması, fiziki üsullarla qismən və tamamilə dağıdılması, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməsi nəticəsində ölkəmizə və xalqımıza xüsusilə külli miqdarda ziyan vurulub.

Məhkəmə prosesi mayın 19-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Birinci Qarabağ müharibəsinin itkin şəhidləri dəfn ediliblər

## Şəhid Yusif Məmmədov





Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Yusif Mirzəli oğlu Məmmədov mayın 16-da Sumqayıt şəhərində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin əməkdaşları, Sumqayıt Şəhər İcra Hakimiyyətinin nümayəndələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb. Tabutun büküldüyü Azərbaycanın üçrəngli Dövlət bayrağı şəhidin yaxınlarına təqdim olunub. Dəfn mərasimində iştirak edənlər Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbədən və lokal antiterror əməliyyatlarından danışıblar. Həmçinin Birinci Qarabağ müharibəsi qəhrəmanlarının yarımçıq qalmış missiyasını onların davamçılarının uğurla tamamladığını qeyd ediblər. Başımıza gətirilən müsibətlərin qisasının alındığı, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunduğu, bu yolda canını fəda edənlərin ruhlarının rahatlığa qovuşduğu diqqətə çatdırılıb.

❖ ❖ ❖

## Şəhid Miriş Rüstəmov





Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən şəhid Rüstəmov Miriş Məhəmməd oğlu Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Miriş Rüstəmov naməlum şəhid kimi Füzuli rayonunda dəfn olunmuşdu.

AZƏRTAC xəbər verir ki, şəhidlə vida mərasimi ailəsinin yaşadığı evdə keçirilib, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Sonra şəhidin nəşi Ağcabədi şəhərindəki Şəhidlər xiyabanına gətirilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları ilə yanaşı, Ağcabədi Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin nəşi yaylım atəşi altında torpağa tapşırılıb. Nəşin üzərinə örtülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin qardaşına verilib.

Qeyd edək ki, Rüstəmov Miriş Məhəmməd oğlu 1973-cü ildə Ağcabədi şəhərində anadan olub. Birinci Qarabağ müharibəsində Füzuli rayonu ərazisində gedən döyüşlərdə iştirak edib. 1993-cü il avqustun 23-də Füzuli rayonunun Kürdmahmudlu kəndi istiqamətində itkin düşmüş sayılırdı.

❖ ❖ ❖

## Şəhid Elşən Ərzumanov





Mayın 16-da Birinci Qarabağ müharibəsi şəhidi Ərzumanov Elşən İsaməddin oğlunun nəşinin qalıqları Qubada dəfn olunub.

AZƏRTAC xəbər verir ki, 1993-cü ildə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü ölümündən 32 il sonra doğma yurdunda torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Quba Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və sakinlər iştirak ediblər.

Doğulub boya-başa çatdığı evdə vida mərasimi keçirildikdən sonra şəhid Dövlət himninin sədaları altında və yaylım atəşinin müşayiəti ilə son mənzilə yola salınıb. Elşən Ərzumanov Qubadakı Şəhidlər xiyabanında dəfn edilib.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları səsləndirilib, şəhidlərin ruhuna dualar oxunub. Nəşin üzərinə örtülmüş Azərbaycanın üçrəngli Dövlət bayrağı şəhidin qardaşına təqdim edilib.

Şəhid Ərzumanov Elşən İsaməddin oğlu 23 aprel 1974-cü ildə Quba şəhərində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsində Kəlbəcər rayonu istiqamətində qəhrəmanlıqla döyüşüb. 1993-cü il aprelin 5-də Murovdağ uğrunda gedən şiddətli döyüşlər zamanı itkin düşüb.

❖ ❖ ❖

## Şəhid Abuzər Abbasov





Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan Abbasov Abuzər Tənzil oğlunun nəşinin qalıqları Zərdab rayonuna gətirilib. O, Beyləqan rayon məzarlığında naməlum şəhid kimi dəfn olunmuşdu.

AZƏRTAC xəbər verir ki, şəhidin nəşi bu gün rayonun Yuxarı Seyidlər kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Vida mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub. Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb. Qeyd edək ki, Abbasov Abuzər Tənzil oğlu 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı ərazisində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

❖ ❖ ❖

## Şəhid Muxtar Məmmədov





Mayın 16-da Naxçıvan Beynəlxalq Hava Limanında Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən Sədərək rayonunun Dəmirçi kəndindən olan Məmmədov Muxtar Bayram oğlunun nəşinin qarşılanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə dövlət rəsmiləri, qazilər, şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şəhidin üçrəngli bayrağa bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirilib. Yaylım atəşi açılıb, "Qurani-Kərim"dən ayələr oxunub. Sonra şəhidin cənazəsi doğulduğu Sədərək rayonunun Dəmirçi kəndinə yola salınıb. Muxtar Məmmədov Birinci Qarabağ müharibəsində iştirak edib, 1994-cü il yanvarın 26-da Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində itkin düşüb.

* * *

Mayın 16-da Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən Sədərək rayonunun Dəmirçi kəndindən olan Məmmədov Muxtar Bayram oğlunun nəşi doğulduğu kəndə gətirilib. AZƏRTAC xəbər verir ki, doğulduğu evdə şəhidlə ailə üzvlərinin vida mərasimi keçirilib.

Sonra şəhidin nəşi Şərur şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Mərasim zamanı "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib, "Qurani-Kərim"dən ayələr və Dövlət Himni oxunub, havaya yaylım atəşi açılıb. Nəşin üzərinə örtülmüş üçrəngli Azərbaycan bayrağı şəhidin qardaşına təqdim olunub. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları, qazilər, icra hakimiyyətinin əməkdaşları, hökumət, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Baş prokuror paytaxtın Nizami rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Mayın 16-da baş prokuror Kamran Əliyev Bakı şəhəri Nizami Rayon Prokurorluğunun inzibati binasında Nizami rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 29 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# TÜRKPA üzv dövlətlərinin təhsil sahəsində əməkdaşlığı ümumtürk inteqrasiyasının sürətlənməsinə xidmət edir

**Mayın 16-da Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının "TÜRKPA üzv dövlətlərində təhsil sahəsində proseslərin uyğunlaşdırılması: problemlər və inkişaf perspektivləri" mövzusuna həsr olunmuş videokonfrans formatında 12-ci iclası keçirilib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda TÜRKPA-nın Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər üzrə komissiyasının sədr müavini, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva və komissiyanın üzvü, deputat Hikmət Məmmədov iştirak ediblər.

Günay Əfəndiyeva komissiyanın hesabatına istinadən qeyd edib ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında bir sıra ikitərəfli təhsil sazişlərinin imzalanması və ortaq universitetlərin yaradılması bu sahədə atılmış mühüm addımlar sırasındadır. O bildirib ki, bu təşəbbüslər yalnız təhsil sahəsində əməkdaşlığın dərinləşməsinə deyil, eyni zamanda ümumtürk inteqrasiyasının sürətlənməsinə və gələcək nəsillərin ortaq dəyərlər əsasında formalaşmasına xidmət edir.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Hikmət Məmmədov iclasda türk dövlətləri arasında təhsil və tədris prosesinin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

İclasın sonunda komissiyanın əsas mövzusuna dair hesabat məruzəsi və tövsiyə xarakterli qərarlar müzakirə olunub. Müzakirələr nəticəsində "Uşaqların sağlamlığı və inkişafına zərər vuran məlumatlardan qorunması haqqında" Model Qanunun hazırlanmasına dair qərar qəbul edilib.

* * *

Həmin gün TÜRKPA-nın Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyası çərçivəsində "TÜRKPA üzv dövlətlərində təhsil sahəsində müasir çağırışlar, problemlər və inkişaf yolları" mövzusunda seminarı keçirilib.

Tədbirə TÜRKPA-nın Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının sədri, Qırğız Respublikası Joqorku Keneşinin deputatı Ulan Bakasov moderatorluq edib.

Seminarda çıxış edən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Məktəbəqədər və Ümumi Təhsil Şöbəsinin müdiri Çapay Məmmədov nazirliyin türk dövlətləri ilə təhsil sahəsində fəal əməkdaşlıq etdiyini bildirib. O, 2024-cü ildə Şuşada keçirilmiş Türk Dövlətləri Təşkilatının təhsil nazirlərinin VIII iclasında təhsil sahəsində əməkdaşlığın gücləndirilməsinin, ortaq proqramların hazırlanmasının və məktəblilərin ortaq türk tarixini və mədəniyyətini öyrənməsinin vacibliyinin vurğulandığını qeyd edib, seminarın mövzusu barədə öz fikirlərini səsləndirib.

Çıxışının sonunda Təhsil Nazirliyinin şöbə müdiri, TÜRKPA üzv dövlətləri arasında təhsil sahəsində əməkdaşlığının inkişafı, problemlərin həlli və təhsil sistemlərinin müasir tələblərə uyğunlaşdırılması məqsədilə ortaq strategiyaların hazırlanmasının vacibliyini vurğulayıb.

İclasda Qırğız Respublikası Təhsil və Elm Nazirliyinin Elm və İnnovasiyalar Departamentinin aparıcı mütəxəssisi Ayjan Karibekova, Türkiyə Respublikası Ali Təhsil Şurasının müşaviri İlyas Kara, Milli Təhsil Nazirliyi Milli Təhsil Akademiyasının eksperti Murat Akkuş və nazirliyin Beynəlxalq Təşkilatlar Şöbəsi, Avropa Birliyi və Xarici Əlaqələr Baş İdarəsinin ekspert müəllimi Şeyma Nur Dündar türk dövlətləri arasında elm, təhsil, mədəniyyət və humanitar sahələrdə ortaq fəaliyyətlərin gələcək perspektivləri və birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikirlərini bildiriblər.

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Qlobal nüfuzun göstəricisi

**Prezident İlham Əliyevin müstəqil, uzaqgörən və praqmatik siyasəti sayəsində Azərbaycan həm ölkə, həm də beynəlxalq miqyasda xeyli uğurlar qazanıb. Ötən 21 illik zaman kəsimində böyük inkişaf yolu qət edən, xarici siyasətində məharətli diplomatiya həyata keçirərək dünyada adından söz etdirən ölkəmizin qlobal arenada özünəməxsus yeri və rolu olduğu danılmazdır.**

Reallıqdır ki, Cənubi Qafqazın aparıcı aktoru olan respublikamızla hərtərəfli əlaqələr qurmaqda maraqlı olan ölkələrin sayı durmadan artır. Çünki, sözü imzası qədər dəyərli olan Prezident İlham Əliyev Azərbaycana dünyada etibarlı, güvənilən ölkə adı qazandırıb. Bütün bunlara görədir ki, ölkəmizin rəhbəri hər zaman qlobal əhəmiyyətli tədbirlərə dəvət alan ali qonaqlar sırasında olur.

Mayın 15-də Prezident İlham Əliyev Albaniyanın Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gedib. Dövlətimizin başçısının "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirakı bir daha ölkəmizin xarici siyasət kursunun uğurunu təsdiqlədi.

### Uğurlu xarici siyasət

Bu gün ölkəmiz həm də yeni və ədalətli dünya nizamı naminə həyata keçirdiyi siyasəti, baş verən münaqişələrdə daim ədalətin və beynəlxalq hüququn yanında olması, problemlərin dialoq yolu ilə həll olunmasına tərəfdar çıxması ilə böyük diqqət və rəğbət görür. Ötən cümə axşamı Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Prezident İlham Əliyevə zəng edərək Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verməsi, baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə etməsi də elə bu qəbildəndir.

Ümumiyyətlə, Bakının həyata keçirdiyi çoxşaxəli beynəlxalq siyasət ölkəmizin həm Şərq, həm də Qərb ölkələri ilə uğurlu əlaqələr qurmasına mühüm zəmin yaradır.

Apreldə Prezident İlham Əliyevin Türkiyəyə və Çinə səfər etməsi, həmçinin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə gəlmələri buna nümunədir.

Bu il aprelin 22-dən 24-dək Prezident İlham Əliyevin Çin Xalq Respublikasında dövlət səfərində olması da bu baxımdan mühüm əhəmiyyət kəsb edirdi. Səfər zamanı Pekində Prezident İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzaladılar. Sözügedən bəyanatda da deyilir ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər.

Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsi zamanı Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanla Çin arasında bəyanatın imzalanması ölkəmiz üçün həqiqətən mühüm nailiyyətdir.

Xatırladaq ki, aprelin 10-da ölkəmizin rəhbəri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün adıçəkilən ölkədə işgüzar səfərdə olub. Həmin səfər zamanı dövlətimizin başçısının Antalyada Prezident Rəcəb Tayyib Ərdoğan, eləcə də digər ölkə rəhbərləri ilə görüşlər keçirməsi Azərbaycanın beynəlxalq siyasətdəki vacib rolunu bir daha təsdiqlədi.

### Avropanın ümid yeri

Azərbaycanın region ölkələri ilə əlaqələri də bölgədə təhlükəsizliyə, inkişafa və tərəqqiyə hesablanıb. Bu baxımdan, Azərbaycan-İran əlaqələri mühüm diqqət çəkir. Bu il aprelin 28-də İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfər etməsi göstərdi ki, qonşu dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətində hər zaman prioritetdir.

Strateji coğrafi bölgədə yerləşməsi, o cümlədən ənənəvi və bərpaolunan enerji ehtiyatları ilə zəngin olması ölkəmizi daim dünyanın diqqət mərkəzinə çevirir. Enerji təhlükəsizliyi və alternativ nəqliyyat dəhlizləri baxımından Avropa ölkələrinin Azərbaycana ehtiyacının artması da günümüzün reallığıdır.

Hazırda Azərbaycanın qaz satdığı 10 Avropa ölkəsindən 8-i Avropa İttifaqının üzvüdür. Azərbaycan enerji sahəsində etibarlı tərəfdaş olduğu üçün burada qaz təchizatımızın coğrafiyası da gündən-günə genişlənir.

Aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Prezident İlham Əliyevlə görüşü zamanı qeyd etmişdi ki, Avropa İttifaqı Azərbaycanla əlaqələri yüksək dəyərləndirir və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlıdır. O həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayaraq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini demişdi.

Bu nümunələrdən də göründüyü kimi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü və uzaqgörən xarici siyasət sayəsində Azərbaycan təkcə regionda deyil, dünya miqyasında tanınan və böyük etimad göstərilən nüfuzlu ölkəyə çevrilib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Prezidentin xarici siyasət kursu sivilizasiyalararası dialoqda mühüm rol oynayır

**Hazırda beynəlxalq münasibətlər sistemində çox ciddi geostrateji dəyişikliklər baş verir. Bu dəyişikliklər və digər proseslərin fonunda beynəlxalq müstəvidə yeni çağırışlar meydana gəlir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətin önəmindən asılıdır.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında qeyd edib ki, belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitliyə və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.

Deputat bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb: "Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə isə milli gücünün artmasını təmin edib. Bununla yanaşı, tarazlaşdırılmış və milli maraqlara əsaslanan siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları



ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun yürüdülən xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir".

Siyasətçi qeyd edib ki, Prezident İlham Əliyevin mötəbər beynəlxalq tədbirlərə dəvət olunması Azərbaycanın və onun liderinin böyük nüfuzunun göstəricisidir. Azərbaycan Prezidentinin Tiranada keçirilən "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısına dəvət olunması da bu reallığı təsdiqləyir. Bütövlükdə, Azərbaycan Prezidenti İlham Əliyevin adı, fəaliyyəti və siyasəti inkişaf və sabitlik anlayışları ilə assosiasiya olunur. Dövlət başçısının çoxşaxəli və mütərəqqi xarici siyasət kursu müasir dünyanın, xalqlararası əməkdaşlığın inkişafında və sivilizasiyalararası dialoqda mühüm rol oynayır. "Cənab İlham Əliyevin praqmatik strategiyası, təklif və təşəbbüsləri dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə, bəşəri dəyərlərin təbliği və təşviqinə, qlobal xarakterli problemlərin həllinə dəyərli töhfələr verir. Dövlətimizin başçısının son illər müxtəlif beynəlxalq tədbirlərə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitinə, Ərəb Dövlətləri Liqasının Zirvə toplantısına, Mərkəzi Asiya ölkələrinin liderlərinin sammitinə və digər beynəlxalq tədbirlərə dəvət olunması onun yüksək nüfuzunun ifadəsidir. Bu baxımdan, Avropa Siyasi Birliyinin növbəti sammitində iştirak da xüsusi vurğulanmalıdır. Sammit çərçivəsində Avropa İttifaqı Şurasının Prezidentinin və Avropa Komissiyasının rəhbərinin, eləcə də müxtəlif ölkələrin liderlərinin Prezident İlham Əliyevlə görüşü Azərbaycanın və onun rəhbərinin beynəlxalq münasibətlər sistemində önəmli rolundan xəbər verir", - deyə S.Fətəliyeva deyib.

O vurğulayıb ki, bütövlükdə, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin növbəti sammitində yüksək səviyyədə iştirakı dövlətimizin başçısının diplomatiyasının daha bir parlaq nailiyyətidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan Avropanın getdikcə daha vacib tərəfdaşına çevrilir

**Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə özü təmin edib. Belə ölkələr dünyada çox deyil. Biz isə, üstəlik, həm də regionun, hətta Avropanın enerji təhlükəsizliyinə dəstək veririk.**

İlk neftini 2005-ci il mayın 25-də Bakı yaxınlığındakı Səngəçal terminalından qəbul edən və bir il sonra onu Türkiyənin Ceyhan limanına çatdıran Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri 20 ilə yaxındır tam sistem kimi ahəngdar fəaliyyət göstərir. BTC öz yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyır. Təxminən eyni vaxtdan Cənubi Qafqaz Boru Kəməri də (CQBK) istifadəyə verilərək Azərbaycan qazını Gürcüstana çatdırıb. Daha sonra CQBK-ya Gürcüstan-Türkiyə sərhədində qoşulan 280 kilometrlik xətlə qaz 2007-ci ilin yayından Ceyhana ixrac olunur. Bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanan bu marşrut Azərbaycanı dünyada təkcə neft deyil, həm də qaz ixrac edən ölkə kimi tanıdıb.

Əgər əvvəl Azərbaycan qazını Gürcüstan və Türkiyə alırdısa, 2020-ci ilin son günündən başlayaraq mavi yanacaq Avropaya da ixrac edilir. Azərbaycandan qaz alan ölkələrin sayı getdikcə artır. 2027-ci ilədək qaz ixracının artırılması barədə Avropa İttifaqı və ölkəmiz arasında bir neçə il əvvəl Anlaşma Memorandumu da imzalanıb.

Hazırda Azərbaycan 12 ölkəyə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyaya təbii qaz ixrac edir. Göründüyü kimi, onlardan 10-u Avropa ölkəsi və 8-i Avropa İttifaqının üzvüdür. Ölkəmiz artıq uzun müddətdir etibarlı tərəfdaş kimi tanınır və Azərbaycan qazını Avropaya nəql edən "Cənub qaz dəhlizi" bunu bir daha təsdiqlədi. Təsadüfi deyil ki, Avropa Komissiyasının yüksəkrütbəli nümayəndələri Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı olduğunu dönə-dönə vurğulayıblar.

Prezident İlham Əliyev bu qlobal layihələrin hamısının sıx əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını dəfələrlə qeyd edib. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının keçən ay Bakıda keçirilən 11-ci iclasında dövlətimizin başçısı qeyd edib ki, əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı: "Bizi birləşdirən tərəfdaşlığın və əməkdaşlığın çox müsbət əzmi məsuliyyətimizin aydın təzahürüdür. Bu, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların məsuliyyətidir. Əlbəttə ki, bu prosesin üç əsas iştirakçısı arasında maraqların tarazlığı beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə bizim hekayətimizi və ya hekayətlərimizi uğura çevirdi. Ölkələr, onların hökumətləri, investorlar, şirkətlər, aparıcı maliyyə təsisatları bizim komandamızdır və bu komanda genişlənir. Bu gün heç vaxt görünmədiyi kimi aydındır ki, enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Mən hətta deyərdim ki, bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik, çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları,




gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının, neft-kimya məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır".

Məlumdur ki, Avropanın Azərbaycandan daha çox qaz ixrac edə bilməsi üçün birinci şərt həmin qazın hasilatıdır. Ölkəmizin bu sahədə potensialı böyükdür. Hazırda qaz əsasən nəhəng "Şahdəniz"dən çıxarılır. Xəzərdə işlənməsinin müxtəlif mərhələlərində olan yeni yataqlar da var.

Lakin qaz ixracının artırılmasının bir mənbəyi yeni yataqlardırsa, digər şərtlərindən biri də mavi yanacağa qənaətdir. Bunu isə "yaşıl enerji" hesabına etmək mümkündür. Bizim "yaşıl gündəliyimiz" də artıq hamıya bəllidir. Daha çox təbii qaza qənaət etmək imkanı verən "yaşıl enerji" gündəliyi əlavə edildikdən sonra Azərbaycan enerji təhlükəsizliyi baxımından tərəfdaşları üçün daha mühüm rol oynayacaq. Bu gün günəş və külək enerji stansiyalarına aid sərmayədarlarla artıq imzalanmış müqavilələr ölkəmizə 2030-cu ilə qədər 6 qiqavat günəş və külək enerjisi təmin edəcək. Nəticədə daxildə bu gün elektrik enerjisinin istehsalında istifadə olunan təbii qaza xeyli qənaət etmək imkanı yaranacaq və həmin qaz ixraca yönəldiləcək.

Prezident İlham Əliyev icra edilməkdə olan bu və digər işlərin nəticəsinə inam ifadə edərək demişdir: "Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır".

Bəli, "yaşıl enerji"yə keçid o demək deyil ki, neftdən, qazdan imtina olunmalıdır. İmtina söhbətini ortaya atanlar bu məsələni düzgün başa düşməyənlərdir. Keçid sürətlə, tələm-tələsik atılan bir addım olmamalıdır. Hələ COP29 ərəfəsində Prezident İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən bu məsələlərə toxunmuşdu: "Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq".

Təsadüfi deyil ki, Tiranada "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısında Avropanın enerji təhlükəsizliyi məsələləri də öz əksini tapıb. Bu sahədə Avropaya Azərbaycanın dəstəyi böyükdür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Terrorun sonu yoxdur

**PKK terror təşkilatının özünü buraxaraq tərk-silah qərarını verməsi tək Türkiyə Respublikasında deyil, bütün dünyada geniş əks-səda yaradıb və sülhsevər ölkələr, xalqlar tərəfindən rəğbətlə qarşılanıb. ABŞ, Böyük Britaniya, Avropa İttifaqı, NATO, eləcə də bir çox dövlətlər tərəfindən terror təşkilatı kimi tanınan PKK-nın Suriyada, İranda, Yəməndə və Avropada güclü qolları var və terror təşkilatı olaraq Şimali İraqda möhkəm bazaya malikdir.**



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, terror təşkilatı olan PKK Türkiyə dövlətinə qarşı həmişə amansız mövqedə olub və vaxtaşırı terror aktları törətməklə qardaş ölkənin təhlükəsizliyinə ciddi təhdid yaradıb. Son 40 ilə yaxın bir dövrdə PKK terrorçuları tərəfindən 40 mindən çox insan məhv edilib, infrastruktura ciddi ziyan vurulub. "Abdullah Öcalanın bilavasitə rəhbərliyi ilə 1970-ci ildə yaradılmış terror təşkilatı bütün hallarda türk xalqına qənim kəsilib, Türkiyəni istəməyən qüvvələrin məkrli niyyətlərinin həyata keçirilməsində böyük rol oynayıb. PKK terror təşkilatının fəaliyyətini dayandırmasının böyük əks-səda yaratması səbəbsiz deyil və bu, ölkədə təhlükəsizliyin və əmin-amanlığın yaradılması baxımından çox əhəmiyyətlidir. Azərbaycan dövləti üçün də bu hadisə böyük önəm kəsb edir. Çünki Türkiyənin təhlükəsizliyi bizim üçün həyat, həm də qardaşlıq məsələsidir", - deyə komitə sədri əlavə edib.

Deputat xatırladıb ki, Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsini mühüm bir hadisə kimi qarşılayıb və Türkiyə xalqını ürəkdən təbrik edib. "Başda əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyub Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm" ifadələri qardaş Türkiyə xalqına rəhbərimizin, xalqımızın böyük məhəbbətindən, rəğbətindən, Türkiyənin təhlükəsizliyinə dəstəkdən qaynaqlanır. Bu, bir həqiqətdir ki, Türkiyə ən çətin anlarda Azərbaycanın yanında olduğunu nümayiş etdirib və dövlətimizin haqq səsinə daim öz səsini qatıb. 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri zamanı xalqımız bunu aydın gördü. Biz də həmişə Türkiyənin mövqeyindən çıxış etməyi vacib hesab edirik və bu, dövlətimizin rəhbərinin siyasi kursunun tərkib hissəsidir.

T.Rzayev qeyd edib ki, Prezident İlham Əliyevin "Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib məsələ olan bu hadisə dövlətçilik yolunda aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir. Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram" sözləri ürəkdəngələndir, xalqımızın arzularının, istəklərinin təntənəsidir: "Bu, Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının nümayişi olmaqla bərabər, bizi istəyənlərə, qələbələrimizə sevinənlərə sevinc töhfəsi, əleyhimizə gedənlərə, haqq səsimizi eşitməyənlərə, uğurlarımıza kölgə salmağa çalışanlara "Yolunuza qayıdın, terrordan, təcavüzdən, təhdiddən əl çəkin" mesajıdır. Erməni terrorçularını, təcavüzkarlarını dəstəkləyənlər, Ermənistana havadarlıq edənlər, xəyanətkar dövləti yeni müharibəyə hazırlayanlar, qatilləri silahlandıranlar öz əməllərindən çəkinməlidirlər. PKK-nın yolu, əməli, qərarı göstərir ki, terrorun, təcavüzün axırı yoxdur, bu yola qədəm qoyanların sonu faciədir, ölümdür. Abdullah Öcalanın taleyi, bu gün Azərbaycan məhkəmələri qarşısında boynunu büküb yazıq görkəmi alan, ancaq uzun müddət xalqımızın qanına susayan, minlərlə insanı qətlə yetirən, şəhər və kəndlərimizi xarabazarlıqlara çevirən erməni təcavüzkarlarının aqibəti, bugünkü vəziyyəti buna sübutdur".

Bu gün Azərbaycan və Türkiyənin ən xoşbəxt günlərini yaşadığını vurğulayan deputat bildirib ki, "bir millət, iki dövlət" olan xalqlarımız, rəhbərlərimiz özlərini güclü lider, uzaqgörən siyasətçi, iradəli rəhbər kimi dünyaya təqdim edir və əldə etdikləri uğurlarla xalqlarımızı sevindirir, ölkələrimizi ucaldır, bəşəriyyətə xoşbəxtlik və inkişaf, təhlükəsiz dünya bəxş edirlər.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



## "ABŞ-nin Beynəlxalq Dini Azadlıqlar Komissiyasının iddiaları cəfəngiyyatdır"

**ABŞ-nin Beynəlxalq Dini Azadlıqlar Komissiyası - USCIRF iyunun 5-də Azərbaycandakı vəziyyətlə bağlı virtual dinləmələr keçirəcək. Dinləmələrdə "erməni mədəni irsinin məhv edilməsi" məsələsinə də baxılacağı açıqlanıb. Açıqlamada Azərbaycanın "erməni mədəni irsi"ni məhv etdiyi, "Dağlıq Qarabağ"dakı dini obyektlərin təhlükə altında olduğu ilə bağlı ölkəmiz əleyhinə ittihamlar irəli sürülüb.**



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə bildirib ki, komissiyanın yaydığı uydurma iddia və ittihamlarla dolu bəyanatı qəbuledilməzdir. O qeyd edib ki, ABŞ-nin Beynəlxalq Dini Azadlıqlar Komissiyası tərəfindən ölkəmizə qarşı irəli sürülən iddialar uydurma, saxta və əsassızdır: "Qarabağda erməni irsi, ümumiyyətlə, yoxdur. Komissiyanın uydurma qarayaxma kampaniyası, heç bir əsası olmayan böhtanları ölkəmizə qarşı qərəzdən qaynaqlanır. Erməni lobbisi və onların təsirində olan qüvvələr Azərbaycanın müstəqil siyasətini, dünyada artan nüfuzunu, tarixi zəfərini, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini həzm edə bilmirlər. Buna görə də müxtəlif platformalardan istifadə edərək anti-Azərbaycan kampaniyası həyata keçirirlər. Amma bu dəfə uydurduqları yalan acı təəssüf doğurur. Dünyada dini dözümlülük və tolerantlıq məkanı kimi tanınan Azərbaycana qarşı bu sahədə iddia irəli sürmək ən yumşaq halda qərəzdir, riyakarlıqdır".

Siyasətçi xatırladıb ki, bu ilin yanvar ayının 25-də Prezident İlham Əliyev ölkəmizdəki dini qurumlara maliyyə yardımı ayrılması barədə sərəncam imzalayıb. "Həmin sərəncama əsasən, 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına, Avropa yəhudilərinin Bakı dini icmasına, Sefarad yəhudilərinin Bakı dini icmasına, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna və Alban-Udi xristian dini icmasına, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fonduna xeyli vəsait ayrılıb. Təkcə bu sərəncam Amerikanın erməni dairələrlə işbirliyində olan Beynəlxalq Dini Azadlıqlar Komissiyasının iddialarının qərəzli olduğunu sübut etməyə kifayətdir".

V.Rəhimzadə sonda vurğulayıb: "Keçmiş işğal illərində Qarabağ və Şərqi Zəngəzurdakı islam dininə aid abidələri dağıdan, Qafqaz alban irsinə qarşı saxtakarlıq edən işğalçı Ermənistan olub. Beynəlxalq Dini Azadlıqlar Komissiyası bunları niyə araşdırmır? Ona görə də bu qurumun iddiaları cəfəngiyyatdan başqa bir şey deyil. Anti-Azərbaycan dairələrin yalan iddiaları, kampaniyaları ölkəmizin müstəqil siyasətinə təsir edə bilməz".

***Ə.QABİLQIZI, "Azərbaycan"***

## Ermənistanın baş nazirinin açıqlaması illüziyadır

### Məqsəd ictimaiyyəti çaşdırmaqdır

**Baş nazir Nikol Paşinyan Albaniyanın paytaxtı Tiranada keçirilən "Avropa Siyasi Birliyini"nin 6-cı sammiti çərçivəsində azərbaycanlı jurnalistin Ermənistanın yeni konstitusiyası, Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı ünvanladığı sualı özünəməxsus şəkildə cavablandırıb. Bundan görünür ki, Paşinyan yenə köhnə ampluasındadır.**



Milli Məclisin deputatı Elman Nəsirov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, o, yenidən həqiqəti təhrif edərək Ermənistan konstitusiyasında Azərbaycana qarşı heç bir ərazi iddiası olmadığını söyləyib. Əksinə, guya Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiası yer alıb. Paşinyan həmçinin bildirib ki, konstitusiya ilə bağlı yeni layihə hazır deyil. "Göründüyü kimi, sülhdən danışan Paşinyan faktiki olaraq sülhün yaranmasına gətirib çıxaracaq real vəziyyəti düzgün qiymətləndirmir. Yenə dezinformasiya yayır, təhrif olunmuş məlumatlar səsləndirir. Halbuki gün kimi aydındır ki, Ermənistan konstitusiyasının preambulasında Azərbaycana qarşı ərazi iddiası öz əksini tapıb. Əgər davamlı sülh istəyirlərsə, Ermənistanın konstitusiyasının preambulası mütləq dəyişməli, Konstitusiya Məhkəməsi yeni konstitusiyanı təsdiqləməlidir. Dəyişiklik yalnız referendum vasitəsilə ola bilər. Buna görə də erməni xalqı siyasi iradəsini ortaya qoymalı və bu bəndin imtinası lehinə səs verməlidir", - deyə E.Nəsirov əlavə edib.

Deputat qeyd edib ki, bu halda yeni vəziyyət yaranır və sülh üçün imkanlar yaranır. O ki qaldı Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiasına - bu, tamamilə yalan məlumatdır. Azərbaycanın 1991-ci il oktyabrın 18-də qəbul olunmuş Konstitusiya Aktında yazılıb ki, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1995-ci ilin Konstitusiyasında da bu akta istinad var. Ermənistan bunu əlində bayraq tutaraq Azərbaycana qarşı təzyiq göstərməyə çalışır. Amma bu, yanlış, həqiqətdən uzaq məlumatdır. Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin siyasi varisi olması Ermənistana qarşı hər hansı ərazi iddiasını özündə əks etdirmir.

E.Nəsirov Azərbaycan ərazisinin 86,6 min kvadrat kilometr olduğunu vurğulayaraq bildirib ki, cümhuriyyət dövründə olmuş 114 min kvadrat kilometr əraziyə heç vaxt iddia qaldırılmayıb və heç bir yerdə bu fikir səsləndirilməyib: "Prezident İlham Əliyev heç vaxt belə bir məsələni gündəmə gətirməyib. 71 il müstəqilliyimiz əlimizdən alındı, 1991-ci ildə müstəqilliyimizi bərpa etdik və burada varislik öz əksini tapıb".

Deputat qeyd edib ki, Nikol Paşinyan sülhə hazır olmadığının yenidən mesajını verib və onun iddiaları Ermənistan tərəfinin sülhlə bağlı fikirlərinin illüziya, ictimaiyyəti çaşdırmaq cəhdi olduğunu göstərir. Reallıqda Ermənistan sülhə doğru heç bir addım atmaq istəmir.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

## <u>*Yaxın Şərq Tədqiqatları Mərkəzinin rəhbəri:*</u>

## "Prezident İlham Əliyevin təbriki türk birliyinə dair strateji siqnaldır"

**Yaxın Şərq Tədqiqatları Mərkəzinin prezidenti, Yaxın Şərq üzrə ekspert Murad Sadıqzadə AZƏRTAC-a müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyevin PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbrikinin əhəmiyyətini şərh edib.**



O, söhbət əsnasında bu addımın Türkiyə üçün əhəmiyyəti, regional güc balansında mümkün nəticələri və Azərbaycanın terrorizmlə mübarizədəki rolu ilə bağlı sualları da cavablandırıb.

*- Prezident İlham Əliyevin PKK-nın özünü ləğv etməsi ilə bağlı təbrikini necə qiymətləndirirsiniz?*

- Azərbaycan Prezidenti İlham Əliyevin PKK terror qruplaşmasının özünü ləğv etməsi münasibətilə təbrikini düşünülmüş, çoxşaxəli diplomatik gediş kimi qiymətləndirmək lazımdır. Bu, sadəcə olaraq həmrəylik deyil, həm də Türkiyə ilə strateji birliyin nümayişidir. Bakı ilə Ankara arasında sıx siyasi, hərbi və iqtisadi əlaqələri nəzərə alsaq, belə bir bəyanat müttəfiqlik xəttinin təbii davamına çevrilir. Bu, həmçinin təhlükəsizlik məsələlərində Türkiyə-Azərbaycan vahid mövqeyinin mövcudluğuna dair regiona verilən siqnal rolunu oynayır.

Qarabağ münaqişəsini yaşayan Azərbaycan üçün separatizm və silahlı qeyri-qanuni strukturlarla mübarizə mövzusu dərin məna kəsb edir. Prezident İlham Əliyev Türkiyəyə dəstəyini ifadə edərək, zorakılığın legitim siyasi proseslə əvəz olunduğu bütün region üçün sabitlik və asayiş modeli kimi "Terrorsuz Türkiyə"nin əhəmiyyətini vurğulayır.

*- Bu dəstək jesti Türkiyə və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğan üçün nə dərəcədə önəmlidir?*

- Bu bəyanatın yüksək rəmzi və strateji əhəmiyyəti var. Birincisi, bu, xüsusən də Ankaranın PKK ilə bağlı siyasətinə Qərbin müxtəlif reaksiyaları fonunda Türkiyənin hərəkətlərinin əsas müttəfiqləri tərəfindən müsbət qarşılandığını təsdiqləyir. İkincisi, legitimliyini terrorla effektiv mübarizə aparan lider obrazı üzərində quran Prezident Rəcəb Tayyib Ərdoğan üçün Azərbaycan dövlətinin başçısının bəyanatı qazanılan uğurun xaricdən təsdiqidir. Bu, başqalarının uğursuz olduğu məqamda nəticələr əldə edə bilən lider kimi onun imicini gücləndirir.

Üstəlik, bu jest Ankaranın fəal şəkildə irəli sürdüyü "türk birliyi" konsepsiyasına dəstək kimi də qiymətləndirilə bilər. Beləliklə, Prezident İlham Əliyevin təbriki həm ikitərəfli əlaqələri, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində çoxtərəfli koordinasiya formatlarını gücləndirir.

*- Bu yeni reallıq Türkiyənin regional lider kimi daha da güclənməsi üçün hansı imkanlar yaradır və Azərbaycanın maraqlarına necə təsir edə bilər?*

- PKK-nın özünü ləğv etməsi və bu hadisəyə diplomatik dəstək Türkiyəyə regional liderliyini gücləndirmək üçün unikal şans verir. Daxili terror təhlükəsinin azaldılması Ankaraya daha fəal şəkildə xarici siyasətə - Suriya, İraq, Qafqaz və Mərkəzi Asiyaya diqqət ayırmağa imkan verəcək.

Türkiyə üçün bu, "mənəvi kapitalın" toplanması anıdır; o, özünü uzun sürən münaqişənin öhdəsindən uğurla gəlmiş dövlət kimi təqdim edə bilər. Bu, Ankaranın müsəlman dünyasında və daxili təhlükələrlə üzləşən ölkələr arasında mövqeyini gücləndirir.

Azərbaycan isə Türkiyənin bütün sahələrdə güclənməsindən faydalanır. Yəni hərbi sahədə, texnologiya, logistika, iqtisadiyyat, nəqliyyat və enerji dəhlizlərinin inkişafı istiqamətlərində və diplomatiyada Türkiyə ilə müttəfiqlik müstəvisində dolayı təsir vasitəsilə güclənir. Üstəlik, Şərqlə Qərb arasında əsas aktor olan Bakının Türk Dövlətləri Təşkilatındakı mövqeyi də möhkəmlənir.

*- Regionda terrorizmlə mübarizənin yeni mərhələsində Azərbaycanın rolunu necə görürsünüz?*

- Azərbaycan terrorizmlə mübarizənin böhrandan sonrakı dövründə əsas rol oynaya bilər. Rəsmi Bakının ölkənin ərazi bütövlüyünün uğurla bərpa edilməsini, hərbi, diplomatik və humanitar yanaşmaları birləşdirən öz təcrübəsi var. Bu, İraq və ya Suriya kimi digər böhran bölgələrində faydalı ola bilər.

Azərbaycan, həmçinin KTMT, MDB və İslam Əməkdaşlıq Təşkilatı kimi strukturlar vasitəsilə kəşfiyyat məlumatlarının mübadiləsi və səylərin əlaqələndirilməsi üzrə mühüm platformaya çevrilə bilər. Moskva, Ankara və digər regional paytaxtların yüksək etimadı sayəsində Bakı "təhlükəsizlik habı" qismində çıxış etməyə qadirdir.

Nəhayət, Azərbaycan radikal təşkilatların rəqəmsal təbliğatının artması fonunda xüsusilə aktual olan ərazi bütövlüyü, dünyəvi dövlət və siyasi dialoq gündəliyini təbliğ etməklə terrorizmlə ideoloji mübarizəyə töhfə verə bilər.

## "Paşinyanın açıqlaması Ermənistanın dayanıqlı sülhdə maraqlı olmadığını göstərir"

**Mayın 15-də Ermənistanın baş naziri Nikol Paşinyan Albaniyada Azərbaycan İctimai Televiziyasına verdiyi müsahibədə Ermənistan konstitusiyasında mövcud ərazi iddiaları, habelə Minsk qrupunun ləğvi məsələsində növbəti dəfə beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd edib.**

Ermənistan tərəfi üçün beynəlxalq müqavilələrdə ərazi bütövlüyünə dəstək ifadə edilməsinin heç bir əhəmiyyətə malik olmadığı danılmaz bir faktdır. Bunu sübut etmək üçün Ermənistanın Almatı Bəyannaməsinə qoşulması prosesini və bu razılaşmanı necə kobud şəkildə pozduğunu xatırlatmaq yerinə düşər. Ermənistan tərəfinin daim istinad etdiyi Almatı Bəyannaməsinə qoşulan zaman verdikləri qeyd-şərtləri, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğu hər kəsə məlumdur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş nazirinin İctimai Televiziyaya müsahibəsi zamanı irəli sürdüyü iddialarla bağlı şərhində yer alıb.

Onun sözlərinə görə, baş nazir Ermənistanın tərəf çıxdığı və ratifikasiya edilmiş beynəlxalq müqavilələrin yerli qanunlar üzərində üstünlüyə malik olduğu barədə konstitusiya müddəasına istinad etməklə öz iddialarını arqumentlərlə sübut etməyə çalışması da tamamilə əsassızdır.

"Bunun əksini sübut etmək üçün Ermənistan konstitusiyasının 5-ci maddəsinə (hüquq normalarının iyerarxiyası) nəzər yetirmək kifayətdir. Məhz bu müddəaya əsasən, Ermənistan konstitusiyası ali hüquqi qüvvəyə malikdir və baş nazirin istinad etdiyi beynəlxalq müqavilənin üstün olması müddəasının konstitusiyaya aidiyyəti yoxdur. Ermənistan konstitusiyasının 21-ci maddəsində istinad olunan Ermənistan gerbinin belə özündə indiki Ermənistanın qonşularına ərazi iddialarını əks etdirdiyi də yaxşı məlumdur. Bununla da Ermənistanın hansı müqaviləyə qoşulmasından asılı olmayaraq, konstitusiyada Azərbaycanın ərazi bütövlüyünə qarşı olan müddəanın saxlanılmasına hər vəchlə çalışılmasının nəyə xidmət etdiyi aydın olur", - deyə A.Hacızadə əlavə edib.

Bildirib ki, 2022-ci ilin oktyabr ayından etibarən müzakirə olunan sülh sazişi layihəsində ərazi bütövlüyünə dəstək barədə müvafiq müddəaya razılıq verilməsi ilə yanaşı, paralel olaraq Ermənistan rəhbərliyinin 2023-cü ilin sentyabrında antiterror tədbirlərinə qədər qondarma rejimə necə dəstək verdiyini, onu legitimləşdirməkdə davam etdiyini heç kim unutmayıb. Həmçinin 1991-ci ilin sərhədləri və Almatı Bəyannaməsi əsasında ərazi bütövlüyünə istinad edən Ermənistan tərəfinin son 35 ilə yaxın müddətdə nəyə görə bu xəritələrə və razılıqlara əməl etmədiyinə, sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtinaya görə izahat verməsi daha yaxşı olardı.

"Qeyd edilənlərlə yanaşı, Ermənistan Konstitusiya Məhkəməsinin qərarlarına mütəmadi olaraq istinad edən baş nazirə Ermənistan tərəfinin hələ 2010-cu ilin yanvarında Türkiyə ilə münasibətlərin normallaşdırılmasına dair protokolların onun konstitusiyasına uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinin qərarının təfərrüatlı şəkildə əsaslandırıldığı zaman qondarma "Qərbi Ermənistan" iddialarından əl çəkmədiyini, eyni məntiq və yanaşmanın məhkəmənin Azərbaycanla Ermənistan arasında sərhəd komissiyalarının reqlamentinin Ermənistan konstitusiyasına uyğunluğu ilə bağlı 2024-cü il 26 sentyabr tarixli qərarının qəbulu zamanı tətbiq etdiyini xatırlamaq kifayətdir. Xüsusən də, məhkəmə qərarında preambula və dolayısı ilə Müstəqillik Bəyannaməsinin "erməni dövlətçiliyinin əsas prinsipləri" kimi səciyyələndirilməsi və onların dəyişilməz müddəalar olduğunun qeyd edilməsi, Ermənistanın Azərbaycan ərazilərinə qarşı iddialarından irəli gələn təhdidin miqyasını nümayiş etdirir", - deyə XİN sözçüsü vurğulayıb.

O həmçinin qeyd edib ki, Ermənistanın baş nazirinin bu problemlərin gözardı edilə biləcəyi ilə bağlı məntiqi, bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir. Bununla yanaşı, Ermənistanın keçmiş münaqişənin qalığı olan Minsk qrupunun rəsmi ləğvinə qarşı olan cəhdləri, prosesi sülh sazişi ilə bağlamağa çalışması, bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcud olduğunu nümayiş etdirir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanın milli təhlükəsizliyinə birbaşa təhdid olan konstitusiyanın dəyişdirilməsi sülh üçün əsas şərtdir və bunu tələb etmək Azərbaycanın legitim hüququdur.

17 May Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür

# Poçt göyərçinindən İKT-yə...



**Xəbər verildiyi kimi, Dünya Poçt İttifaqının təşkilatçılığı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən "Azərpoçt"un dəstəyi ilə Bakıda 3 gün davam edən "Poçt Liderləri Forumu" keçirilib.**

Avropa və MDB regionundan olan 30-dan çox ölkənin 150-dən artıq yüksəksəviyyəli nümayəndəsinin - milli poçt xidmətlərinin, texnologiya və e-ticarət şirkətlərinin təmsilçilərinin, eləcə də ekspertlərin iştirakı ilə baş tutan forumda qlobal tendensiyalara və rəqəmsal pozuntulara cavab olaraq poçt sektorunun transformasiyası mövzularında müzakirələr aparılıb.

Bu gün ölkəmizdə poçt və kuryer xidmətlərini təmin edən dövlət qurumu "Azərpoçt" fəaliyyət göstərir. Azərbaycan poçtu həm yerli, həm də beynəlxalq poçt göndərişlərinin çatdırılması, pul köçürmələri, müxtəlif növ xidmətlərin təklif edilməsi və poçt nöqtələrinin idarə edilməsi kimi geniş fəaliyyət sahələrini əhatə edir. Qeyd edək ki, poçtun bu günə kimi gəldiyi yol çox uzaq zamanlardan başlayaraq olduqca uzun və zəngin tarixə malikdir. Onun ilk formaları qədim ticarət yolları və karvan yolları üzərində qurulmuş əlaqə sistemlərinə dayanır. Bu tarixi yol zaman-zaman müxtəlif imperiyaların, dövlətlərin və dövrlərin təsiri ilə inkişaf etmiş, yenilənmiş və müasir dövrdə rəqəmsallaşmış bir xidmət sisteminə çevrilmişdir.

İlk zamanlar məlumat və məktublar atlı kuryerlər və karvanlar, ya da poçt göyərçinləri vasitəsilə ötürülüb. Səfəvilərin hakimiyyəti dövründə dövlət idarəçiliyi və ordu üçün mərkəzləşdirilmiş poçt şəbəkəsi təşkil edilib. XIX əsrdə xüsisi poçt idarələri yaradılıb. 1818-ci ildə Şuşada, sonra Bakıda poçt şöbələri yaradılıb və beynəlxalq poçt mübadiləsi formalaşıb. 70 illik sovetlər zamanında poçt sistemi inkişaf edərək ümumittifaq rabitə şəbəkəsinə inteqrasiya olundu. Məktublar, qəzetlər, teleqramlar, pul köçürmələri poçt vasitəsilə həyata keçirilirdi. Poçt xidmətləri şəhərlərlə yanaşı, kəndlərdə də geniş yayılmışdı. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ildə rabitə sahəsində "Azərpoçt" MMC yaradıldı. Bu, müstəqil Azərbaycanın ilk milli poçt operatoru idi. Son 30 illik bir zaman kəsiyi poçt sistemindəki köklü dəyişikliklərə şahidlik etdi. Yeni poçt idarələri yarandı, beynəlxalq əməkdaşlıqlar quruldu. Azərbaycan poçtu Ümumdünya Poçt İttifaqına inteqrasiya olundu. Elektron poçt, izləmə sistemləri, onlayn xidmətlər kimi müasir funksiyalar tətbiq edildi.

Hazırda "Azərpoçt" yüzlərlə şöbəsi ilə birlikdə ölkənin ən böyük poçt şəbəkəsi olaraq, maliyyə xidmətləri, onlayn ödənişlər, e-ticarət çatdırılması, rabitə və bank xidmətləri də daxil olmaqla çoxsaylı fəaliyyət göstərir. Bu fəaliyyət sahəsinə elektron hökumət sisteminin bir hissəsi kimi dövlət xidmətlərinə inteqrasiya olunmasını da əlavə etsək, poçt xidmətinin sosial və iqtisadi əlaqələrin möhkəmlənməsi baxımından nə qədər əhəmiyyətli olduğunu görərik. Poçt sisteminin tərəqqisi onun beynəlxalq səviyyədə fəaliyyət göstərməsində də əks olunub. Xarici əməkdaşlıqlar sayəsində "Azərpoçt" həm beynəlxalq poçt göndərişlərini təmin edir, həm də qlobal poçt şəbəkəsinə inteqrasiya olunmuş bir milli operator kimi xidmətlər göstərir.

"Azərpoçt" MMC Azərbaycanın rəsmi poçt operatoru olaraq 1993-cü ildən Ümumdünya Poçt İttifaqının üzvüdür. Bu, onun xarici ölkələrlə iki istiqamətli poçt mübadiləsi həyata keçirməsinə imkan verir. "Azərpoçt" transsərhəd e-ticarət sahəsində əməkdaşlıqlar quraraq, logistika mərkəzləri, gömrük inteqrasiyası və rəqəmsal izləmə kimi sistemləri təkmilləşdirir. Poçt sistemində rəqəmsal transformasiya aparmaq üçün beynəlxalq qurumlarla təlim, layihə və texniki əməkdaşlıq proqramlarında iştirak edir. "Western Union", "Contact", "MoneyGram" kimi beynəlxalq pul köçürmə sistemləri ilə əməkdaşlıq edərək həm ölkədən kənara, həm də ölkəyə daxil olan pul köçürmələrini həyata keçirir.

Bütün bunlar adıçəkilən forumun məhz Bakıda keçirilməsinə təkan verib. Tədbirdə MDB ölkələri üzrə Regional Rabitə Birliyinin baş direktoru Aleksey Borodin belə mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı öz fikirlərini bölüşərək deyib: "Azərpoçt" həmişə regionun ən qabaqcıl və inkişaf etmiş müəssisələrindən biri olub. Biz bilirik ki, bir çox müasir xidmətlər tətbiq olunur və dövlət səviyyəsində maliyyə və rəqəmsal xidmətlər də istifadəyə verilib. Əlbəttə, Azərbaycan coğrafi mövqeyinə görə mühüm logistik mərkəzlərdən və marşrutlardan biri kimi çıxış edir. Düşünürəm ki, məhz Azərbaycanın bu coğrafi mövqeyi, əlverişli logistik xüsusiyyətləri və tətbiq edilən innovativ xidmətlər regionumuzda inkişaf üçün əsas çıxış nöqtələrindən biridir".

Bununla belə, artıq Azərbaycanda ənənəvi poçt xidmətlərinin internetlə müəyyən dərəcədə əvəzlənməsi müşahidə olunur. Xüsusilə rəqəmsal texnologiyaların inkişafı, internetin geniş yayılması, elektron və telekommunikasiya vasitələrinin populyarlaşması poçt xidmətlərinin bir çox funksiyasını dəyişdirib, ya da azaldıb. Yeri gəlmişkən, 2006-cı ildən mayın 17-si BMT Baş Assambleyasının qərarı ilə Dünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü kimi qeyd olunur. Təsisatın əsas məqsədi İKT-nin əhəmiyyətini artırmaq, rəqəmsal bərabərliyi təşviq etmək, yəni internet və texnologiyaya çıxışı olmayan insanlara, xüsusilə kənd və ucqar ərazilərdə yaşayanlara diqqət yönəltmək, innovasiya və yeni texnologiyaları dəstəkləmək informasiya cəmiyyətinin qurulmasında iştirak etməkdən ibarətdir.

Əslində, telekommuniksiyanın poçt xidmətləri ilə birbaşa əlaqəsi var. Hər ikisinin məqsədi məlumat və məlumat daşıyıcılarının bir nöqtədən digərinə ötürülməsidir. Poçt bunu məktub, bağlama şəklində fiziki göndərişlərlə, telekommunikasiya isə səs, mətn və rəqəmsal siqnallar vasitəsilə edir. "Azərpoçt" son illər onlayn ödənişlər, e-imza, mobil tətbiqlər kimi rəqəmsal xidmətlər göstərir. Demək olar ki, poçt infrastrukturu rəqəmsal iqtisadiyyatın daşıyıcısına çevrilmişdir. Bu da o deməkdir ki, poçt telekommunikasiya texnologiyaları ilə inteqrasiya olunmuş bir xidmət sahəsinə çevrilib.

Bir sözlə, telekommunikasiya ilə poçt arasındakı birbaşa əlaqəni belə ifadə etmək olar ki, poçt fiziki, telekommunikasiya isə rəqəmsal rabitədir, amma eyni məqsədə xidmət edirlər: insanları birləşdirmək və məlumat mübadiləsi aparmaq. Telekommunikasiya həm də internet, mobil şəbəkələr və peyk texnologiyaları vasitəsilə poçt xidmətlərinin daha çevik və əlçatan olmasına şərait yaradır. Müasir dünyada bu iki sahə bir-birini tamamlayır, dəstəkləyir və birlikdə rəqəmsal cəmiyyətin təməlini təşkil edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili

**Müasir dövrün tələbləri və texnologiyanın sürətli inkişafı dövlət idarəetməsində informasiya təminatının və media ilə işin təşkilinin əhəmiyyətini artırıb. Dövlətin şəffaf və səmərəli fəaliyyət göstərməsi, vətəndaşların dövlət orqanları ilə əlaqələrinin optimallaşdırılması, cəmiyyətin müxtəlif sahələrində dövlətin fəaliyyəti barədə məlumatlılığın təmin edilməsi üçün düzgün, effektiv informasiya siyasətinin həyata keçirilməsi vacibdir.**

Bu, eyni zamanda dövlətin ictimaiyyətlə münasibətlərinin inkişafını və media ilə əlaqələrinin səmərəli təşkilini tələb edir.

Azərbaycan Respublikasında da bu istiqamətdə mühüm islahatlar həyata keçirilmiş və dövlət idarəetməsində informasiya təminatı, media ilə işin təşkili strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili yalnız hüquqi və institusional çərçivələrdə deyil, həm də informasiya məkanının bütün iştirakçıları ilə düzgün əlaqələr qurulmasını tələb edir. Bu sahədə Azərbaycan Respublikası müxtəlif qanunvericilik və normativ aktlar qəbul edərək informasiya təminatını təkmilləşdirmişdir. Müvafiq qanunlar, xüsusilə "İnformasiya əldə etmək haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunları dövlətin informasiya siyasətinin əsas çərçivəsini müəyyən edir.

İnformasiya əldə etmək hüququ və media azadlığı Azərbaycanın Konstitusiyasında qorunan əsas hüquqlar sırasındadır. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi vətəndaşların informasiya əldə etmək hüququnu təmin edir və dövlət orqanlarının fəaliyyətinə dair məlumatların açıq olmasını şərtləndirir. Bu hüququn təmini və inkişafı çərçivəsində dövlət qurumlarının informasiya təminatının keyfiyyətini artırmaq, media ilə əlaqələrini gücləndirmək üçün müxtəlif təkmilləşdirmə mexanizmləri tətbiq edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları əsasında Elektron Hökumət platformalarının inkişafı da dövlət idarəetməsinin informasiya təminatını optimallaşdırmışdır.

Azərbaycan hökuməti informasiya təminatının gücləndirilməsi və ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra islahatlar həyata keçirmişdir. Bu islahatlar arasında açıq hökumət təşəbbüsləri, elektron hökumət layihələri və media sahəsindəki yeni təşəbbüslər xüsusilə diqqət çəkir.

"ASAN xidmət" və "e-Gov" kimi layihələr elektron hökumət xidmətlərinin inkişafını, vətəndaşların dövlət xidmətlərinə daha rahat çıxışını təmin edir. Bu platformalar dövlət orqanlarının fəaliyyətini vətəndaşlara daha açıq göstərir və informasiya əldəetmə prosesini sürətləndirir.

"ASAN xidmət" mərkəzləri dövlət xidmətlərinin təqdimatında böyük irəliləyişə səbəb olmuşdur. Bu mərkəzlər vətəndaşlara yüksək keyfiyyətli və vaxtında dövlət xidmətləri göstərir. Eyni zamanda "e-Gov" sistemi də dövlət-vətəndaş əlaqələrini yeni bir səviyyəyə çatdırıb. Burada vətəndaşlar bir çox xidmətlərə onlayn şəkildə müraciət edə bilirlər. Bununla yanaşı, "Açıq Hökumət Məlumatları" portalı da Azərbaycan Respublikası dövlət qurumlarının şəffaflığını artırmaq məqsədini daşıyır.

Dövlətin fəaliyyətini cəmiyyətə çatdırmaq və ictimai rəyi formalaşdırmaq baxımından media ilə qarşılıqlı əlaqələrin düzgün qurulması vacibdir. Bu məqsədlə Azərbaycan Respublikasının dövlət qurumları mətbuat xidmətlərini gücləndirərək, media ilə əlaqələrini daha da təkmilləşdirmişdir.

Azərbaycan Respublikasında Medianın İnkişafı Agentliyinin yaradılması media sahəsində islahatların aparılmasında və peşəkar jurnalistlərin hazırlanmasında mühüm addım olmuşdur. Agentlik media sahəsinin tənzimlənməsi, jurnalistlərin hüquqlarının qorunması və peşəkar inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir.

Dövlət idarəetməsində media ilə işin düzgün təşkili ictimaiyyətin dövlət siyasətinə olan inamını artırır, informasiya təhlükəsizliyini təmin edir və şəffaflığı gücləndirir. Bu sahədə media ilə əməkdaşlığın inkişafı və kommunikasiya strategiyalarının təkmilləşdirilməsi müasir dövlət idarəetməsinin ayrılmaz hissəsinə çevrilib. Ölkəmizdə bu istiqamətdə atılan addımlar - dövlət qurumlarında peşəkar mətbuat xidmətlərinin formalaşdırılması, sosial media vasitəsilə məlumatlandırmanın gücləndirilməsi və şəffaflığın artırılması dövlət-media münasibətlərinin sağlam əsaslar üzərində qurulmasına xidmət edir. Bu baxımdan, dövlət idarəetməsində media ilə əlaqələrin gücləndirilməsi üçün davamlı islahatlar aparılır, yeni kommunikasiya texnologiyalarından istifadə genişləndirilir və ictimaiyyətlə əlaqələrdə şəffaflıq əsas prinsip kimi qorunur.

Sosial media və rəqəmsal platformalar dövlət idarəçiliyi üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Son illərdə dövlət qurumlarının "Tviter", "Feysbuk", "İnstaqram" və sair bu kimi sosial media platformalarında fəaliyyəti ilə ictimai ünsiyyətdə yeni dövr başlayıb. Bu platformalar vətəndaşların dövlətin fəaliyyəti haqqında operativ, dəqiq məlumatlarla təmin edilməsi, ictimai rəy və təkliflərin qəbulu üçün səmərəli vasitəyə çevrilib.

Müasir dövrdə məlumatların doğruluğu və etibarlılığı, eləcə də internet üzərindən yayılan saxta xəbərlər və dezinformasiyanın qarşısının alınması məsələləri dövlətin informasiya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Dezinformasiyaya qarşı mübarizə məqsədilə müxtəlif təhlil və araşdırmalar aparılır, jurnalistlər və ictimaiyyət məlumatlandırılır. Kibertəhlükəsizlik sahəsində atılan addımlar və müxtəlif kibermüdafiə tədbirləri dövlətin informasiya təhlükəsizliyini qorumağa yönəlmişdir. Elə bu tədbirlərdən biri də dövlət başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nın qəbul edilməsidir. Bu strategiya yalnız texnoloji yenilikləri dəstəkləməklə kifayətlənmir, eyni zamanda dövlət idarəçiliyi, iqtisadiyyat, elm və təhlükəsizlik sahələrində süni intellektin effektiv istifadəsini təmin etməyə yönəlib. Süni intellektin inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramı bu sahənin planlı şəkildə inkişaf etdirilməsinə və gələcək çağırışlara uyğun olaraq idarə edilməsinə imkan yaradır.

Süni intellektin inkişafı üzrə qəbul edilən dövlət proqramı Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın və dövlət idarəçiliyinin modernləşməsində mühüm rol oynayacaq. Proqramın icrası kibertəhlükəsizliyi gücləndirəcək, insan kapitalını inkişaf etdirəcək və ölkədə innovasiyaların sürətli inkişafına şərait yaradacaq. Dövlət proqramının strateji məqsədləri süni intellektin təhlükəsiz, etik və effektiv tətbiqini təmin etməklə, Azərbaycanın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyini möhkəmləndirməkdir. Bu istiqamətdə atılan addımlar süni intellektin yalnız innovasiya aləti kimi deyil, həm də dövlət təhlükəsizliyi, informasiya idarəçiliyi və ictimai rifahın artırılması üçün mühüm vasitə olduğunu göstərir. Beləliklə, qəbul olunan dövlət proqramı süni intellektin məsuliyyətli və dayanıqlı inkişafını təmin edərək, Azərbaycanın rəqəmsal gələcəyini formalaşdıran əsas sütunlardan birinə çevrilir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da hər bir sivil cəmiyyətin inkişaf göstəricisi hesab olunan söz və məlumat azadlığının təmin olunması, medianın fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Bu gün muxtar respublikada yaradılan yardıcılıq mühiti jurnalistlərin istənilən mövzuda sərbəst material hazırlamasına, araşdırma aparmalarına imkan verir. Bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş Naxçıvan mediasını da əhatə edib. Mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli dövlət qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub.

Naxçıvan televiziyasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin internet saytlarının, media hesablarının operativ fəaliyyətinin təmin olunması, Naxçıvan televiziyasının və radiosunun internet üzərindən yayımlanması, muxtar respublikada ölkə telekanallarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi, mərkəzi media qurumlarının muxtar respublikadakı nümayəndələri ilə sıx əlaqələrin yaradılması, bununla da Naxçıvan mediasının vahid komanda şəklində hərəkət etməsi, işin daha da optimallaşdırılması, yeni texnologiyaların iqtisadiyyatın və həyatın bütün sahələrində tətbiqi, sürətli internetə çıxış imkanlarının yaradılması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və turizm potensialı haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir.

Dövlət orqanlarının fəaliyyəti ilə bağlı mətbuata açıq informasiyalar - ümumiləşdirilmiş statistik məlumatlar, aylıq və rüblük hesabatlar, əhaliyə göstərilən ictimai xidmətlər haqqında məlumatlar, açıqlanması qanunvericiliklə müəyyənləşdirilən digər informasiyalar internet saytlarında ictimailəşdirilərək geniş oxucu kütləsinə çatdırılır. Dövlət qurumlarının internet saytları mütəmadi yenilənir və informasiya yükü artırılır. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı haqqında qurumların internet saytlarında məlumatlar, fotoşəkillər və videolar yerləşdirilir, təbliğat işi aparılır.

*Rəmzi İBRAHİMOV,*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri*

# Orta dəhliz üzərindən nəql olunan neft və neft məhsullarının həcmi artacaq

**Yeni dünya düzəni uğrunda gedən siyasi qarşıdurmalar ənənəvi qlobal ticarət marşrutlarının fəaliyyətini demək olar ki, iflic vəziyyətə salıb. Nə vaxtacan davam edəcəyi bilinməyən Rusiya-Ukrayna müharibəsi Çindən Avropaya qədər uzanan ticarət marşrutunun fəaliyyətinin dayanmasına səbəb olub.**



Digər tərəfdən, Yəməndəki husilərin Qırmızı dənizdə apardığı hərbi əməliyyatlar dünyanın önəmli ticarət marşrutunun fəaliyyətini ən aşağı səviyyəyə endirib.

Hər iki hadisə dünya ticarətinə xeyli mənfi təsir göstərib. İlk növbədə uzaq marşrutlardan məcburən istifadə daşınma xərclərini və zamanını artırdığından məhsulların maya dəyərinin yüksəlməsindən dolayı baha qiymətə satılması dünya ticarətinin zəifləməsinə gətirib çıxarıb. Odur ki, indi çıxış yolu kimi Orta dəhlizə üstünlük verilir. Bu marşrutun istehsalçı ilə sifarişçi üçün sərfəli olması isə ölkəmizin təşəbbüsü ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, Orta dəhliz) üzrə bir sıra mühüm razılaşmaların imzalanmasıdır. Belə ki, TBNM-nin təsisçisi olan üç ölkə - Qazaxıstan, Azərbaycan və Gürcüstan yüklərin vahid tərəf üzrə daşınması barədə razılığa gəliblər. Bu fakt qlobal ticarət dəhlizlərdən istifadə edən tərəflər üçün çox önəmlidir. O səbəbdən ki, istehsalçı ilə sifarişçi yüklərin daşınması üçün onlara nə qədər vəsait lazım olduğunu dəqiq bilirlər. İkinci isə dəhlizdə yüklərin daşınması üçün heç bir risk yoxdur və sığorta şirkətləri göndərilən malları tərəddüd etmədən sığortalayırlar, özü də aşağı qiymətə. Çünki Orta dəhlizdə nə husilər var, nə də onların hücumları. Ən nəhayət, Orta dəhlizlə yüklərin Asiyadan Avropaya və ya geri daşınması qısa zamanda həyata keçirilir ki, bu da qlobal ticarətdə vacib şərtdir.

Amma bu da hələ hamısı deyil. Dünya ticarəti üçün son dərəcə əhəmiyyətli olan Orta dəhlizin fəaliyyətinin daha da genişləndirilməsi məsələsi Prezident İlham Əliyevin Çinə son səfərində geniş müzakirə olunub. Bu isə dolayısı ilə onu göstərir ki, getdikcə Avropada da bu qlobal marşruta maraq artır. Yeri gəlmişkən, qeyd edək ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov Londonda Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) illik iclası çərçivəsində "Azərbaycan: "Yaşıl artım" və əlaqəliyin formalaşan qapısı" adlı panel müzakirəsi zamanı çıxışında bildirib ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) ilə neft və neft məhsullarının nəqlinin həcmi artacaq. Nazir həmçinin vurğulayıb ki, Orta dəhliz ənənəvi olaraq ticarət və mal daşınmasına yönəlmiş qeyri-enerji nəqliyyat marşrutu kimi nəzərdən keçirilsə də, o, əhəmiyyətli enerji potensialına da malikdir. M.Cabbarov ölkəmizin tranzit potensialından danışarkən Azərbaycanın yüklərin fasiləsiz hərəkətinin təmin edilməsinə böyük əhəmiyyət verdiyini bildirib. "Bu, həm daxili, həm də xarici səviyyədə müvafiq qurumlar - gömrük, sərhəd xidmətləri və digərləri arasında koordinasiya tələb edir. Baxmayaraq ki, ayrı-ayrı çağırışlar mövcuddur - məsələn, Xəzər dənizində su səviyyəsinin azalması, bu da quru yük və konteyner daşıyan gəmilərin yükqaldırma qabiliyyətini məhdudlaşdırır. Biz bu riskləri dərk edirik və onların həlli üçün regional səviyyədə işləyirik", - deyə o, qeyd edib.

Bundan başqa, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ilə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Roland Prays arasında da Azərbaycan və Dünya Bankının Orta dəhlizin inkişafı və tranzit potensialının artırılması müzakirə edilib. Müzakirə edilən digər mövzu Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) tərkibindəki qurumlarla birgə layihələrin həyata keçirilməsi, eləcə də Orta dəhlizin inkişafı və tranzit potensialının artırılması ilə bağlı əməkdaşlığın genişləndirilməsi olub.

Son dövrlər düyanın nüfuzlu təşkilatları Orta dəhlizlə bağlı müxtəlif hesabatlar dərc edirlər. Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) "Regional iqtisadi perspektivlər" adlı hesabatının may buraxılışında TBNM-in Azərbaycan üçün strateji əhəmiyyəti vurğulanır. Hesabatda bildirilir ki, ortamüddətli perspektivdə Çini Avropa ilə birləşdirən Orta dəhliz üzrə ticarət Azərbaycanın nəqliyyat və logistika sektorları üçün yeni imkanlar yarada bilər, çünki sülhün gücləndirilməsi üzrə səylər yeni ticarət yollarına və investisiya axınına çıxışı aça bilər.

Orta dəhlizlə yüklərin daşınması ildən-ilə sürətlə artır. Keçən il TBNM ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. Cari il onun 5,2 milyon tona qədər artacağı gözlənilir ki, bunun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Bu həcmin 2,5 milyon tonu quru yük (96 min TEU ekvivalenti), 1,7 milyon tonu isə neft olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## Gəncənin daxili yollarının əsaslı təmiri davam edir




**Təmir olunan küçələrin ümumi sahəsi 843,426 min kvadratmetrdir. Təmir-tikinti işləri zamanı küçə və yollarda köhnə örtük sökülür, zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılır və əks dolğu işləri aparılmaqla yeni yol yatağı, optimal qırmadaş və qum-çınqıl qarışığından yeni yol əsası inşa edilir.**

Sadalanan işlərin yekunlaşdığı küçələrdə yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur. Layihə çərçivəsində zəruri olan yerlərdə vətəndaşların yol kənarı ilə rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə mövcud piyada səkiləri bərpa olunur, yeni piyada səkiləri inşa edilir, kənarlarına səki daşları düzülür.

## Şimal-qərb rayonlarında 725,3 hektar sahədə tütün əkilib



**"Azərtütün" Açıq Səhmdar Cəmiyyəti (ASC) tərəfindən Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarında bu günədək 725,3 hektar sahədə "Virciniya botaniki" növlü tütün əkilib.**

Bu il ASC tərəfindən həmin rayonlarda 849,5 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, tütün istehsalı ilə əlaqədar 50 fermerlə müqavilə bağlanılıb. Fermerlərlə bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahə 422,9 hektar təşkil edir. Eyni zamanda şirkətin özü tərəfindən bu il şimal-qərb bölgəsində 426,6 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur.

Bu günədək şirkət tərəfindən Şəki rayonunda 358,2, Zaqatalada 147,5, Qaxda 142,6, Balakəndə 40,5, Oğuz rayonunda isə 36,5 hektar sahəyə tütün şitilləri köçürülüb və hazırda işlər davam etdirilir.

## Gədəbəydə könüllü qanvermə aksiyası keçirilib



**Aksiya rayon icra hakimiyyətinin və "Respublika Qan Bankı" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə Gədəbəy Rayon Mərkəzi Xəstəxanasında reallaşıb.**

Həkim-hematoloqlar tərəfindən hər bir donorun sağlamlığı öncədən yoxlanılıb, hərtərəfli tibbi müayinədən sonra onlardan qan götürülüb. 60 nəfər rayon sakinindən tədarük olunan qan hemofiliyalı və talassemiyalı xəstələrin müalicəsində istifadə ediləcək.

Reportaj

# Yağışlı baharın nübar barları

## Havalar isindikcə istehsal artır, istehsal artdıqca qiymətlər düşür





**Mini texnika cərgələr arasında hərəkət edərək torpağın altını üstünə çevirir. Ağappaq kartoflar üzə çıxır. Qızlar, gəlinlər cərgələr arasına düşərək kartofları bir-bir əllərindəki vedrələrə yığırlar. Vedrələr dolduqca hər kəs üstündə "Azərbaycan məhsulu" yazılmış və sahənin bir tərəfində - cərgələr arasında sıralanan kartof kisələrinə yaxınlaşıb kartofları ora boşaldır. Beləcə, kisələr kartofla dolur, dolmuş kisələrin sayı bir-bir artır.**

Cəlilabad Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) mütəxəssisi, ixtisasca aqronom olan Hafiz Kərimov və Muğan inzibati ərazi nümayəndəsi Rövşən Həsənovla Muğan-Söyüdlü-Maşlıq avtomobil yolunun kənarında dayanıb bu mənzərəni seyr edirik. Hər tərəfdə qızğın iş gedir. Ərazi nümayəndəsinin təklifi ilə asfalt yoldan düşüb yaxınlıqdakı sahəyə gedirik. Kartof yığanların arasından bir nəfər cavan aralanıb bizə yaxınlaşır. R.Həsənov bizi tanış edir. Salamlaşır, hal-əhval tuturuq. Sonra da ondan - sahibkar Elmar Şahbazlıdan işlərin necə getdiyini soruşuruq. "Sağ olun, lap yaxşıyıq, Allaha şükür, işlərimiz də qaydasındadır". Sonra da sözünün davamını gətirir: "4 hektar pay torpağımda ilin əvvəlində, daha dəqiq desək, yanvar ayının üçüncü ongünlüyündə kartof əkdim. Sahənin üstünə sellofan örtük çəkdim. Əkin zamanı toxumun keyfiyyətinə xüsusi diqqət verdim. Atalar nahaq deməyiblər ki, nə əkərsən, onu da biçərsən. Əkindənsonrakı aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə görməyə çalışdım. Gördüyünüz kimi, artıq məhsul yığırıq. Hesablamama görə, hər hektardan 300 sentner, yəni 30 ton məhsul götürəcəyəm. Qiymət də hələlik biz fermerləri qane edir. Bir kiloqramı 70-80 qəpiyə sahədən veririk".

Ərazi nümayəndəsi söhbətə qoşulur: "Satışda heç bir problem yoxdur. Gördüyünüz o TIR-lar kartof gözləyir. Onlar sahənin içərisinə girə bilmədiklərinə görə orada dayanıblar. Bir azdan məhsul yük maşınları ilə daşınıb TIR-lara yüklənəcək, sonra Rusiya və Ukrayna bazarlarına yola salınacaq".

Kartof sahələrinin necə suvarılması ilə maraqlanırıq. Məlum olur ki, bu iş damcı yolu ilə aparılır. Artezian quyusu ilə yerin təkindən çıxarılan su filtrdən keçirilərək qumdan təmizlənib cərgələrə ötürülür.

Fermer Elmar Şahbazlının dediklərindən aydın olur ki, sellofanaltı əkdiyi 4 hektardan başqa, Üçtəpə kəndi ərazisində icarəyə götürdüyü 13 hektar sahədə də kartof əkib-yetişdirib, amma açıq şəraitdə. Bir neçə gündən sonra həmin sahələrdə də məhsul yığımına başlanılacaq.

Rövşən Həsənovdan ərazi nümayəndəsi olduğu 3 kənddə nə qədər əhali yaşadığını soruşuruq: "Cəmi 8 min nəfər" - deyir. Sonra da əlavə edir: "1450 hektar əkin sahəmiz, 1840 təsərrüfatımız var. Camaatımız əsasən taxıl, kartof əkib-becərir, mal-qara saxlayır".

Ərazi nümayəndəsi, fermer və sahədə çalışan işçilərlə sağollaşıb yolumuza davam edirik. Yolun hər iki tərəfi adamın sinəsinə çatan taxıl zəmiləridir. Duman rənginə oxşar bir çalarda gözəçarpan noxud sahələri arabir diqqətimizi çəkir. Cəmi 3-4 gün əvvəl kartofu yığılan torpaqlara isə qarğıdalı əkilib. Toxumlar cücərib, torpaqdan baş qaldırıb, 2-3 qulaq halına gəlib. Bunları gördükcə əvvəllər təsərrüfat rəhbəri, sonra Salyan Rayon İcraiyyə Komitəsinin sədri, daha sonra isə Neftçala, ardınca da Cəlilabad Rayon Partiya Komitələrinin birinci katibi işləmiş mərhum İbrahim Qurbanovun dediyi bir söz yadımıza düşür: "Cəlilabad torpağı bərəkətli, bol məhsul verən torpaqdır. Bu torpaqdan Muğanın bir çox yerləri üçün gübrə kimi də istifadə etmək olar".

Üzümüzü DAİM-in mütəxəssisi Hafiz Kərimova tuturuq: "Maşallah, deyəsən, işləriniz yaxşı gedir", - deyirik. O isə sözümüzə qüvvət verir: "Bu ili kənd təsərrüfatı üçün uğurlu hesab etmək olar. Qışda bir neçə dəfə qar düşdü, yaz da lap əla keçir. Yağışlar taxıla, kartofa, eləcə də başqa bitkilərə can verir. Taxılın məhsuldarlığı keçən illə müqayisədə xeyli çox olacaq. Yağışların hesabına çöllərdə-düzlərdə heyvan-qara üçün bol yem kütləsi də əmələ gəlib. Yem bol olanda ət-süd, yağ da çox olur. Hər sahədə nəticələrin yaxşı olacağına inanırıq".

Cəlilabaddan Masallı rayonu istiqamətinə gedən "köhə yol" adlanan yol ilə 6-7 kilometr gedib sağa dönürük. Burada da ucsuz-bucaqsız taxıl zəmiləri göz işlədikcə uzanıb gedir. Üstü sellofan örtüklü, habelə açıq şəraitdə becərilən çiyələk sahələri bir-birini əvəz edir. Hafiz Kərimovdan buranın kimə məxsus olduğunu soruşuruq. "Mirağa Həsənovun çiyələk sahəsidir", - deyir. Yaddaşımı silkələyirəm: "Zənnim məni aldatmırsa, onun əkin sahələri Göytəpə şəhərinin ətrafında idi, - deyirəm, - 4-5 il əvvəl orada olub onunla söhbət aparmış, haqqında yazı hazırlamışam". DAİM-in mütəxəssisi: "Düz deyirsiniz, siz onun oradakı istixanasında olmusunuz. Bura isə şəhərdən bir az aralıdır, onun açıq şəraitdə becərdiyi təsərrüfatıdır".

Nəhayət, sahəyə çatırıq. H.Kərimov təsərrüfatın rəhbəri ilə əvvəldən telefonla əlaqə saxladığı üçün burada bizi Mirağa Həsənovun sahibkarı olduğu "AZBERR" müəssisəsinin aparıcı mütəxəssisi Cavanşir Həsənov qarşılayır. Sahədə məhsul yığılır, qızğın iş gedir. Sahə düşərgəsində qoyulmuş masa arxasında oturub söhbət edirik. C.Həsənov deyir ki, yalnız çiyələk yetişdirməklə məşğul olurlar: "15 hektar sahəmiz var. Bu iş kənardan baxana, bəlkə də, asan gələr. Lakin çiyələk yetişdirməyin öz çətinlikləri var. Çox xərc tələb olunur. DAİM-in mütəxəssisləri yaxşı bilir. Son günlər yağan yağışlar bir çox sahələrə xeyirli olsa da, açıq havada yetişdirilən çiyələklərə xeyli ziyan vurdu. Amma bu bizi ruhdan salmır. Sellofan örtük altında yetişdirdiyimiz çiyələyin yığımına əvvəl, açıq havada becərdiyimizin yığımına isə on gündür başlamışıq. Yığdığımız məhsulu Göytəpə şəhərindəki anbara göndəririk. Orada məhsul xüsusi temperaturda şoklama prosesindən keçirilir. Bu ondan ötrüdür ki, xarici ölkələrin bazarlarına göndərilərkən yolda xarab olmasın. Anbarlarımızdan Bakının "Meyvəli" bazarına da çiyələk göndərilir. Hazırda müəssisəmizdə 60 nəfər çalışır. Onlar hər gün səhər bizim maşınlarla evlərindən götürülür, axşam evlərinə çatdırılır".

Təsərrüfatın həyətindəki döşəməsinə sellofan örtük sərilmiş hovuzla maraqlanırıq. Məlum olur ki, 2 artezian quyusunun suyu öncə bura vurulur. Hovuzda su durulub təmizlənməklə yanaşı, həm də günəş şüası ilə zənginləşir. Sahəyə damcı yolu ilə verilən bu su bitkilərin daha tez və sağlam inkişafına şərait yaradır.

Cavanşir Həsənov aqrar sahəyə dövlət dəstəyindən də danışdı. Uzaq məsafədən çiyələk yetişdirdikləri əraziyə elektrik xəttinin çəkilişindən, artezian quyularının qazılması və s. işlərdən razılıq etdi.

Bu gün Cəlilabada yolunuz düşsə, siz də hər yerdə qızğın iş getdiyinin şahidi olacaqsınız. İndiyədək onlar yığdıqları 11 min 360 ton kartofun10 min 987 tonunu, 3 min 460 ton çiyələyin 2 min 836 tondan çoxunu xarici bazarlara ixrac etmişlər. Bu isə aqrar sektorun ölkəmizə gətirdiyi valyuta deməkdir. Daxili bazarlarda da Cəlilabadın nübar kartof və çiyələk məhsulları çoxdur. Yığım artdıqca məhsulun qiyməti düşür və bu nemətlər hamı üçün əlçatan olur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Qubanın hər daşında bir tarix yatır

## Rayonda keçmişin silinməz izlərinə həssas münasibət var

**Quba təkcə əsrarəngiz təbiəti ilə seçilmir. Bu bölgəmiz zəngin tarixi keçmişi ilə də diqqət çəkir. Cəsarətlə demək olar ki, Qubanın turizm bölgəsi kimi şöhrət tapmasında rayondakı tarixi abidələrin də özünəməxsus rolu var.**




Biz bu abidələri çox görmüşük, onlara dəfələrlə tamaşa etmiş və tarixlərinə aid nələri isə öyrənməyə maraq göstərmişik. Bu dəfə isə həmin abidələrə qiyabi səfərimizə Quba Soyqırım Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova bələdçilik edir. Tarixçi həmsöhbətimiz abidələrin əhəmiyyətindən danışaraq bildirdi ki, onların bərpası xüsusi proqram üzrə aparılır. İlk mərhələdə məscidlər bərpa olunub və onlardan biri Səkinəxanım məscididir. Səkinəxanım məscidi 1854-cü ildə Quba şəhərində tikilmiş tarix-memarlıq abidəsidir. Məscid Abbasqulu ağa Bakıxanovun xatirəsini əbədiləşdirmək üçün ədibin həyat yoldaşı Səkinə xanım Bakıxanovanın şəxsi vəsaiti hesabına tikilib. İbadət evi dördbucaq formasındadır. Tavanı dörd sütun üzərində dayanıb. Döşəməsi daş plitələrlə üzlənib. Məscidin 9 pəncərəsi və 2 qapısı var. Damı isə dəmir təbəqə ilə işlənib. Onu da qeyd edək ki, sovet dövrünün qadağaları bu tarixi abidədən də yan keçməyib. Belə ki, həmin vaxt məsciddən tikiş fabriki kimi istifadə edilib. Lakin zaman dəyişəndən sonra Nazirlər Kabinetinin 2 avqust 2001-ci il qərarı ilə bu tikili ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.

Rayonun tarixi abidələrlə zəngin kəndlərindən biri Ağbildir. "Ağbil" sözü türk mənşəli olub kiçik qəbir daşı mənasını ifadə edir. Sovet hakimiyyəti illərində buradakı qədim tikililərdən ikisi dağıdılsa da, ikisi qorunub saxlanılıb. Bu günədək gəlib çıxan həmin abidələrdən biri Şeyx Məziyyət türbəsidir. 1537-ci ildə Şirvanşahlar dövründə tikilən türbəni sonralar yerli əhali bərpa edib. Tarixi məlumatlara görə, türbələr Şirvanşah Xəlilullahın göstərişi ilə memar Tacəddin tərəfindən inşa olunub. Bununla yanaşı, Ağbil türbələrinin olduğu ərazidə müxtəlif qəbir daşlarına da rast gəlinir.

Hazırda mövcud olan iki türbənin içində qəbirlər var. Türbələrin yerləşdiyi ərazidə kurqanlar və sandıq qəbirlər də mövcuddur. Qəbir daşları Səfəvi hökmdarı Şah İsmayılın yürüşləri zamanı həlak olan döyüşçülərin buradakı məzarlarda dəfn olunduğundan xəbər verir.

Bir qədər aralıda isə Şeyx Rəşid türbəsi yerləşir. Abidə xaricdən 8 guşəli, daxildən isə 4 bucaqlı quruluşa malikdir. Şeyx Rəşidin məzarı da buradadır. Qədim tikili Şərq üslubunda inşa edilib. Hazırda insanlar buradan ibadət yeri kimi istifadə edirlər.

Quba abidələrindən danışan həmsöhbətim Rəxşəndə xanım "Altı günbəz" sinaqoqunun tarixini də vərəqləyir. Öyrənirik ki, bu, 1888-ci ildə Gillel ben Xaimin layihəsinə əsasən tikilmiş bir tarixi abidədir. Məbədin 14 əsas pəncərəsi var. Böyük ibadət zalı olan sinaqoq Şərq memarlıq üslubunda tikilib. İçərisindəki ibadət divarına baxan hissə aron-kaduş adlanır. O, hündürlüyünə görə Avropada təkrarı olmayan və Qüdsə baxan qibləgahdır. Hündürlüyü 7 metrdir. Müqəddəs kitab həmin divarda yerləşən dolabda saxlanılır. Sinaqoq Quba xanı Hüseyn Əli xanın icazəsi ilə Qilqat məhəlləsinin sakinlərinin Qələdüz kəndi ətrafından indiki əraziyə 6 gün ərzində köçürülmələrinin simvoludur. Yeri gəlmişkən, dağ yəhudiləri bütün Quba xanlarının dövründə hər bir sahədə qayğı və dəstək ilə əhatə olunmuşlar. Onlar bu xatirəni yaşadır və həmişə ehtiramla xatırlayırlar.

Rustov kəndində yerləşən qədim tarixə malik olan məscidin də maraqlı memarlıq quruluşu var. 1903-cü ildə inşa edilən məscidin cənub fasadında dairəvi pəncərənin aşağısında yerləşən yonulmuş əhəngdaşı üzərində oyma üsulu ilə binanın Hacı Yusif tərəfindən tikildiyi yazılıb. Deyilənlərə görə, Azərbaycanın böyük xeyriyyəçisi, milyonçu Hacı Zeynalabdin Tağıyevin də məscidin tikilməsində maddi köməyi olub. Təbii ki, sovet hakimiyyəti illərində bu məscid də bağlanmış və binadan taxıl anbarı kimi istifadə edilmişdi. Bu möhtəşəm dini və tarixi abidə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra yenidən dindarların istifadəsinə verilib.

Onu da bildirək ki, yerli əhəmiyyətli memarlıq abidəsi olan məscidin bünövrəsi kürsülük səviyyəsinə qədər çay daşından hörülüb. Divarlar isə kürsülük hissədə çay daşı ilə yonulmuş əhəngdaşının kombinasiyası şəklində, qalan yerlərdə bişmiş kərpicdən inşa edilib. Qadınlar üçün nəzərdə tutulmuş ikinci mərtəbə eyvanın üstündə yerləşir. Məscidin damının örtük konstruksiyasında palıd tirlərdən istifadə olunub. 2008-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən məsciddə bərpa işləri aparılıb. Həmçinin məscidin həyətində yeni köməkçi bina tikilib, abidənin ətrafında abadlıq işləri görülüb.

Birinci Nügədidəki məscid XIX əsrin əvvəllərində kəndin sakinləri tərəfindən tikdirilmişdir. Məscid çiy kərpicdən, minarə isə 15 metr hündürlükdə qırmızı kərpicdən inşa olunub. Minarənin yaşı məsciddən təxminən 10-13 il çoxdur. İlk dəfə məscid və minarə eyni vaxtda tikilibmiş. Amma sonradan məscidin kiçik olduğunu görüblər və onu sökərək yerində hazırkı məscidi inşa ediblər. Minarənin üzərindəki daş lövhədə bu sözlər yazılıb: "Bu minarə hicri-qəməri təqvim ilə 1316-cı ildə Rəcəb ayında tikilib". Daş lövhənin aşağı hissəsində isə qeyd olunub: "Əzaya qalmadan namaza tələs, ölmədən əvvəl də tövbəyə tələs. Bu minarə şərif Hacə-Hacı-Muhammədtərəfindən tikilib". Minarənin sol tərəfindəki başqa bir daş lövhədə isə yazılıb: "Bu məscid Molla Zəki Solban oğlu tərəfindən tikilib".

Sovet hökuməti illərində bu məscidin binasından da başqa təyinat üzrə istifadə edilib. 1930-cu ildən bura kinoklub, idman zalı və anbar olub. Ətrafındakı hücrələr isə uşaq bağçasına verilib. Anbar kimi fəaliyyət göstərən vaxt məscidin taxta döşəmələri sökülüb atılıb və üzlük daşlarla əvəz edilib. Məscidin dam örtüyü yararsız hala düşdüyü üçün 1986-cı ildə təmir olunub. Dam örtüyü dəyişdirilib, xarici fasadlar yenilənib.

Qubada bu və digər abidələrə həssaslıqla yanaşılır. Ümumiyyətlə, rayonda milli irsin qorunması və bərpası istiqamətində ardıcıl işlər görülür. Bu da tariximizə verilən dəyərə əsaslanır və onu gələcək nəsillərə ötürmək kimi yüksək amaldan qaynaqlanır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***





# Ədəbiyyat





● Bəxtiyar Vahabzadə - 100

**Təbiətin və tarixin əsrarəngiz ansambl, harmoniya yaratdığı Şəki şəhərində dünyaya göz açan Bəxtiyar Vahabzadə yaradıcılığında bu qədim yurda xas mozaik gözəllik və xüsusiyyətləri əks etdirmişdir. Dünyayla tanışlığı hər fəsildə bir rəng alan dağlar və meşələrlə əhatələnmiş, tarixi tikili, saray və abidələr, daş döşəmələrin kompozisiyasından ibarət olan füsunkar məkanda başlayan Vahabzadə həm vətəndaş, həm şair, həm alim, həm ictimai xadim statusunu öz şəxsində uğurla birləşdirmişdir. 100 yaşını qeyd etdiyimiz şairin yaradıcılığı ilə yaxın tanışlıqdan sonra gəlinən qənaət budur ki, Bəxtiyar Vahabzadə daha çox fikir, təfəkkür, idrak şairidir, həm də istiqlal şairidir. O, təbiətdəki hər hansı varlıqdan - dağdan, təpədən, çaydan, vulkandan, yarpaqdan danışanda belə fəlsəfi fikirlərini ifadə edib. Duyğularını və duyğularından doğan düşüncələrini bölüşüb. Sevgi haqqında olan şeirlərinin əksəriyyətində də sevdiyi ona onun üçün maraqlı və ecazkar olub ki, özündə sirr və məna gizləyib, həmişə sehrini saxlaya bilib, belə deyək, sevgilinin cazibəsi gizlədə bildiyi məna, sahib olduğu hikmət qədər olub. Bəxtiyar Vahabzadə tarixin cəmi bir əsrinə şahidlik edib. Amma sanki o, tarixlə yaşıddı, insan oğlunun həyat var olandan çəkdiklərinə, yaşadıqlarına bələddir. Onun şeirində Nəsiminin fəlsəfəsi Füzulinin kədəri ilə qovuşuqdur, amma müasir insanın öz fəlsəfəsi hesab edəcəyi qədər sadə və eyni zamanda dərindir. Onun poeziyasında Nizami və Vurğunun hikməti də bir dalğadadır. Anlaşılan və həmişə aktual.**



# "Taleyimiz qələm verdi əlimizə..."

Bəxtiyar Vahabzadənin poetik "mən"i daim ikinci səsi ilə savaşdadır. Oxucuya elə gəlir ki, şair içindəki səslə heç vaxt barışıq mövqeyində olmayıb. Daim tənbeh, ittiham və tənqid... Elə bu məqamda şairin məşhur "təkcə ondan razıyam ki, özümdən narazıyam", - misrası yada düşür. Şairin iç dünyası iki zidd qütbün - şadlıqla kədərin, qorxuyla sevginin mücadilə meydanına bənzəyir. Əminliklə demək olar ki, Bəxtiyar Vahabzadəni heç kim özü qədər sorğu-suala çəkməyib. O, özünün ən yaxşı həmsöhbəti, ikinci səsi ilə dialoqlarında maraqlı tərəf-müqabili olub.

Bəxtiyar üçün gözü görməyən insan hələ kor deyil, onun üçün özü kor olanla gözü kor olanın fərqi var. Göz baxmaq üçün yox, görmək üçündür və bu qənaət poetik qənaət olmayıb, şairin bütün yaradıcılığında görünən tendensiyadır. Bəxtiyarın poetik "mən"i həmişə mahiyyəti görə bilib. Ümid, xəyal, inam və sevgi Bəxtiyar şeirinin əsas qəhrəmanlarıdır.

İşığın gücünün zülmətdə, elmin gücünün cəhalətdə bilindiyini deyən şair zəncir olmasa azadlığın, qəm olmasa şadlığın bilinmədiyini deyir, Allahı ruhunda tapandan bihudə düşüncələrdən uzaq olduğunu yazırdı. Bütün ziddiyyətlərin insanın daxilində qoşa olduğunu yazan şair "Bütövlük" şeirində poetik "mən"inin obrazını XIII əsrdəki sələfi kimi oxucuya təqdim edirdi:

*Matəm də mənəm,*
*Toy da mənəm, mən.*
*Arif də mənəm,*
*Kor da mənəm, mən.*

*Dünya da mənəm,*
*Gor da mənəm, mən.*
*Şadlıq da mənəm, qəm də mənəm, mən.*
*Cənnət də, cəhənnəm də mənəm, mən.*
*Mehrab da mənəm, səcdə edən də.*
*Dünya özü əksiylə də vəhdətdədi məndə.*
*Nəşəm də doğur dərdi-qəmimdən.*
*Ziddimdə tamam, bir bütövəm mən.*

"Dağda şəlalə kimi" şeiri də şairin qayəsini açıqlayan şeirlərdəndir. Ömründə bir neçə dəfə "ölənlər"in ölümünün səssiz olduğunu yazır, orta yol seçənlərin, gah səhərə, gah axşama, gah qışa, gah bahara dəm tutanların mövqeyinə təəssüflənirdi. Ağlayanda hönkürən, güləndə qəh-qəh çəkən, atlarını daşlığa səyirdənlər idi onun dəstəklədikləri. Dənizin xəfif sakitliyinə yox, qasırğalı dalğasına aşiq olan şair əslində bununla öz həyat və yaşam, insanlıq və kişilik meyarlarını açıqlayırdı. "Dağ şəlaləsi" onun istəklərinin hüdudlarının bəyanı idi. Bir rəngi yox, göylərin min rəngini sevirəm, bir gülü yox, güllərin çələngini sevirəm, - deyən şairin sevgisi sərhəd tanımır, o öz yaradıcılığında insanın və zamanın, tarixin və təbiətin, barışın və savaşın palitrasını yaradırdı.

Bəxtiyar Vahabzadə Koroğlunun dəlilərindən ehtiyatlı, savadlı "ağıllılar"ın törəməsindən narahat idi.

*Bizi ehtiyata çağıran ağlı*
*Bir çimdik qeyrətə dəyişdirərdim -*

deyən şair dünyanın siyasi xəritəsini dəyişdirən, yeni yollar açan, cığırlar salanların ağıldan çox qeyrət və cəsarətə söykəndiyini düşünür və ağıllı başlardan həm də "dəlilik" umurdu. Şair hesab edirdi ki, qollardakı kilidləri, ayaqdakı zəncirləri, təfəkkürdəki qandalları əzmkarlıq və cəsarətlə açmaq mümkündür.

Şairin istər ana dili, istər istiqlaliyyət, milli azadlıq təfəkkürü uğrunda mücadiləsi fəaliyyətinin bütün istiqamətlərində özünü göstərirdi. Həm pedaqoq, həm alim, həm şair, daha sonra millət vəkili olan Vahabzadənin bütün fəaliyyət istiqamətləri eyni hədəfə xidmət edirdi: haqqını dərk edən, millət olaraq öz hüquqlarını qoruya bilən, tarixinə sahib çıxan, cəsarət və əzmkarlıq nümayiş etdirən xalqın var olması üçün ona verilmiş bütün tribunalardan layiqincə istifadə edirdi. Bütün yaradıcılığında: şeir, poema, pyes və publisistikasında, həm elmi tədqiqatlarında milli və bəşəri dəyərləri əks etdirirdi. Onun əsərlərində xalqın bütöv obrazı var, desək, yanılmarıq. Şərəfli keçmişə malik, zaman-zaman taleyin acı sınaqları ilə üz-üzə qalan, amma hər dəfə külündən yenidən törəyən xalq obrazı.

Bəxtiyarın poetik "mən"i başqalarını özünə yox, özünü hər kəsə, hər şeyə borclu hesab edir. Əyilib gözündən su içdiyi bulaqdan tutmuş, xalq qarşısında, Vətən qarşısında özünü borclu bilən şair düşünür ki, hər kəs öz borcunu anlasa, Vətən bağını şeytan alağı basmaz. Şair sələfi Füzuli kimi kədərdən qorxmur. Qəm onun üçün fikirlərə açar, dərin düşüncələrə ustaddır.

Bəxtiyar Vahabzadənin şeirində əşyalar var ki, onun ətrafında bir fəlsəfi kompozisiya qurulur. Beşik, saat, ayaqqabı, siqar, zindanda döyülən dəmir və sairə. Şair "Beşik" şeirində beşiyi insanın ilk mənzili, ilk yuvasının simvolu kimi təqdim edir. Beşik insanın dünyayla ilk tanış olduğu evdir. Yaddaşı var, ata da, baba da yırğalanıb bu beşikdə. Şair beşiyin üzərindən asılan "Quran", üzərlik, şax-şaxı elə canlı təsvir edir ki, oxucu özünü o beşiyin ətrafında hiss edir. Beşik evdir, ocaqdır. Anaların laylayla ruha Vətən içirdiyi bir yurd yeridir. Laylanın davamı kimi şairin yaradıcılığında bir fəlsəfi missiyası dəqiqliklə ifadə olunan səs muğamdır. Muğam Vahabzadə üçün təkcə "daş ürəkləri sındıran", "Kürü qurudan", kinli ürəklərə su çiləyən, buzu yandıran, qəzəbi söndürən, vicdanı oyadan səs deyil. Muğam ananın laylayla ruha süzdüyü Vətən sevgisini canlandıran, tarixin guşəsinə işıq tutan, yaddaşı oyadan sədadır.

Saat da maraqlı obrazlaşdırılıb şairin əsərlərində. Saatsaz emalatxanasında olan müəllif zamanı göstərən, vaxtın itkisini bildirən bir əşyanın bu qədər bəzənib süsləndiyini, müxtəlif formalarda təqdim olunmasını anlaya bilmir. Saat şairin sevmədiyi əşyalardandır, onun fikrincə saatın səsini ancaq məhkumlar sevə bilər. Zamanı biçdiyi üçün, onları azadlığa yaxınlaşdırdığı üçün. Bütün saatların səsinin eyni, çıqqıltısının eyni olsa da, hökmlərinin fərqli və müxtəlif olduğunu bildirən şair saata həm də fəlsəfi məna yükləyir.

Yaxud dəmirin öz dəmir həmcinsi ilə döyülməsinə dözməyib fəryad etməsini görən qızılın, - məni də sənin kimi döyüb əzirlər, amma mən sənin qədər incimirəm, - iradına, səni döyən özgə, məni döyən özümünküdür, deyə cavab verir. Ümumiyyətlə, gördükləri, şahid olduqları hər hansı həyat hadisəsini mənalandırmaq yaradıcı şəxsiyyətlərə xas xüsusiyyətdir. Bəxtiyar Vahabzadə də müşahidə etdiyi hadisələrin, yaşantıların qələmlə tablosunu yaradıb oxucusuna göstərə bilir. "Qocalar" şeirindəki kimi,

*Çənə əl üstündə, əl çomaq üstə,*
*Qocalar əyləşir tin başlarında.*
*Sinə bayatılı, könül şikəstə,*
*Ömür varaqlanır yaddaşlarında.*

Yaxud, Qədir Rüstəmovun yanıqlı ifasını seyr edən şair Qədiri Şuşasız yetim uşağa, Qədirsiz Şuşanı adi torpağa bənzədir.

"Taleyimiz qələm verdi əlimizə" - deyən şair əlində qələm olmağın, əliqələmli olmağın, şair olmağın məsuliyyətini bilir, bu adın haqqını həm vətəndaş kimi, həm yaradıcı insan kimi sonunacan ödəməyə çalışırdı. Taleyimiz qələm verdi əlimizə, - deyəndə təkcə özünü, şəxsi taleyini yox, xalqın, vətənin taleyini də nəzərdə tutur, onun bütün ağrılarından, yaralarından yazmağı, çarə düşünməyi özünə borc bilirdi. Şair bütün bunları həm poeziyasında, həm dramaturgiyasında, həm publisistikasında eyni həyəcan və eyni duyğuyla ifadə edirdi. Dar otağına bütün cahanı sığdıra bilən, yazı masasına söz ordusunu toplayan şair dünyanın harasında bir ocaq varsa ürəyinin, fikrinin orda olduğunu yazır, söz adamını, düşüncə adamını dünyanın bütün dərdlərinə məsul hesab edirdi. Bəxtiyar Vahabzadə üçün:

*Şair - fikirlərin çırpınan seli,*
*Şair - həqiqətin müğənnisidir.*
*Şair - təbiətin danışan dili,*
*Şair - cəmiyyətin üsyan səsidir.*
*Şair - zəmanənin, əsrin vicdanı,*
*Şair - tarixlərin şərəfi, şanı.*
*Şair - bu dünyada zamanın sözü,*
*Şair - həqiqətin, haqqın güzgüsüdür.*

**Aygün BAĞIRLI,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent**

**ÖZÜMDƏN NARAZIYAM**

Təbiətin könül açan
Min rəngi, min səsi var.
Hər könülün min arzusu,
Min səsli nəğməsi var.

Bu arzular, bu nəğmələr,
Bu səslər bir saz kimi
Mənim solğun sözlərimdə
Heç dil aça bildimi?

Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar.
Məndən əvvəl doğulubdur
Sinəmdəki duyğular.

Səhv atılan addımları
Sonradan anlayıram.
Baxıb vicdan güzgüsünə
Özümü danlayıram.

Siz ey yanlış addımlarım,
Məni dərdə saldınız.
Mən sizinlə döyüşdükcə,
Gün-gündən çoxaldınız.

Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən.
Narahatam, narazıyam
Ömrüm boyu özümdən.

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

**ANA HƏDİYYƏSİ**

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır "ya rəbbim! - deyə:
- Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah!
Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən?
Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən.

İstərəm, bir ana, bir bala sözü
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü
Ucadır, böyükdür hədiyyəsi də.

Çoxdur hədiyyələr insan adına:
Qiymətli ziynətlər, qiymətli daşlar.
Ana həyat verir öz övladına,
Həm də öz ömründən ömür bağışlar.

**BƏXTİYARAM MƏN**

Ömrün payızında sevdim, sevildim,
Elə bilirəm ki, ilk baharam mən.
Arxanca sürünən kölgənəm sənin,
Harda qərar tutsan, orda varam mən.

Mey olsan, yanında bir qədəh ollam,
Gül olsan, çətrini öpən meh ollam.
Ot olsan, bir anda dönüb şeh ollam.
Dağ olsan, zirvənə yağan qaram mən.

Başımı qoyaram gündə yüz kərə
Bir yol ayağını basdığın yerə.
Eşqindir ucaldan məni göylərə,
Bu eşqin gücünə minnətdaram mən.

Sevgiyə hədd qoymaq, düzü günahdır,
Cahilin hər işi, sözü günahdır.
Eşqi günah saymaq özü günahdır,
Kim deyir, eşqimdə günahkaram mən?

Özün bir aləmsən, eşqin bir aləm,
Sən olan könüldə nə kədər, nə qəm!
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,
Səninlə dünyada bəxtiyaram mən.

**SƏN GETDİN**

Sən getdin, elə bil dünya boşaldı
Yaz da köçüb getdi, yeri boş qaldı,
Bahar ürəyimi sənsiz qış aldı,
Mən yaza vurğunam, qışı neylərəm?

Eşqimi aparıb sən getdin demək,
Eşqsiz bir könül nəyimə gərək?
Soyuq daşa döndü o gündən ürək
Sinəmdən asılan daşı neylərəm?

Həmişə ayrıyıq, gecə-gündüzük,
Birimiz təpəyik, birimiz düzük.
Üstünün qaşıyla tanmar üzük,
Əgər üzük yoxsa, qaşı neylərəm?

Niyə yaşayıram, mən niyə sənsiz?
Nə yerə baxmaram, nə göyə sənsiz.
Mən ki, kor olmuşam hər şeyə sənsiz,
Kor gözün üstündə qaşı neylərəm?

**QƏZƏLLƏR**

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "salı yandırdı" muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O - ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

* * *

Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur,
Gülüm yoxdur, bu dünyada ayım yoxdur, ilim yoxdur.

Zaman dönməz öz hökmündən... Biz ayrıldıq, tez ayrıldıq,
Dilim bar verməz, ay dostlar, deyəm ki, sevgilim yoxdur.

Çiçəklərdən, küləklərdən mən allam ətrini yarın,
Dilək ölməz, ürək ölməz, sevənlərcin ölüm yoxdur.

Gülüm əğyar qılıncıyla sevərkən ayrı düşdük biz,
Bu həsrətdən, bu möhnətdən daha müdhiş zülüm yoxdur.

Sevib yandım, külək qalxdı, külüm sovruldu əflakə,
Məni gərmə bu dünyada odum söndü, külüm yoxdur.

Ağac yansa, fəğan eylər, deyər öz dərdini aşkar,
Deməkçün dərdimi yarə, bəmim varsa, zilim yoxdur.

Səninlə Bəxtiyaram mən, ayım sənsən ilim sənsən,
Bu dünyada mənim sənsiz ayım yoxdur, ilim yoxdur.

# Savaş kimi barış danışıqları da uzanana oxşayır

**Mayın 16-da İstanbulda Ukrayna, ABŞ və Türkiyə nümayəndə heyətləri arasında üçtərəfli danışıqlar keçirilib.**



Ukraynanı müdafiə naziri Rustem Umerov, Prezident Ofisinin rəhbəri Andriy Yermak və xarici işlər naziri Andriy Sibiqa təmsil ediblər. Amerika nümayəndə heyətinə Dövlət katibi Marko Rubio, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq və ABŞ-nin Türkiyədəki səfiri Tomas Barak daxil olublar. Türkiyə isə danışıqlara Milli Kəşfiyyat Təşkilatının rəhbəri İbrahim Kalın və xarici işlər naziri Hakan Fidanla qatılıb.

Görüşdən sonra R.Umerov jurnalistlərə açıqlamasında təxminən 1 saat davam edən danışıqların məhsuldar olduğunu deyib.

Bundan sonra Türkiyə tərəfinin vasitəçiliyi ilə Ukrayna və Rusiya nümayəndə heyətləri arasında görüş başlayıb. "Reuters" agentliyinin məlumatına görə, Rusiya nümayəndələri ilə danışıqlar zamanı prezidentlər Volodimir Zelenski və Vladimir Putin arasında mümkün görüş müzakirə olunub.

Bundan əlavə, ABŞ Dövlət Departamentinin nümayəndəsi Maykl Anton İstanbulda Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski ilə ayrıca görüş keçirib.

Türkiyənin "Anadolu" agentliyinin Xarici İşlər Nazirliyindəki mənbələri İstanbulda müxtəlif formatlarda bir sıra görüşlərin, o cümlədən Ukrayna, Rusiya və Türkiyə arasında üçtərəfli görüşün keçiriləcəyini bildirib. Eyni zamanda Rusiyanın "İnterfaks" agentliyi xəbər verir ki, rəsmi Moskva ABŞ-nin Ukrayna ilə birbaşa danışıqlarda iştirakına qarşı çıxıb. Həmçinin rusların tələbinə əsasən danışıqların əvvəlində Türkiyə təmsilçisi salamlama nitqi söyləməli, bundan sonra görüşü tərk etməlidir. Lakin, bildirildiyinə görə, Hakan Fidan salamlama nitqindən sonra danışıqların getdiyi zalı tərk etməyib. O, sülh danışıqlarının açılış nitqində deyib: "Biz sülh yolunda irəliləmək üçün bu fürsətdən istifadə etməliyik. Bu danışıqlar liderlərin görüşünün əsasını təşkil etməlidir. Rusiya və Ukraynanın danışıqlara hazır olması yeni imkanlar pəncərəsi açıb. Qarşıda bizi iki yol gözləyir. Bir yol bizi sülhə aparacaq, digər yol isə dünyanı daha da böyük məhvə sürükləyəcək. Hansı yolu seçəcəyinə tərəflər özləri qərar verəcəklər".

Danışıqlar təxminən 2 saat davam edib.

Dünən səhər saatlarında Ukrayna Prezidenti Ofisinin rəhbəri Andriy Yermak, müdafiə naziri Rustem Umerov və xarici işlər naziri Andriy Sibiqa Böyük Britaniya, Almaniya və Fransadan olan milli təhlükəsizlik müşavirləri, həmçinin Keyt Kelloq ilə görüşüblər. A.Yermakın verdiyi məlumata görə, Rusiya nümayəndə heyəti ilə görüşdən əvvəl mövqelər yekun olaraq razılaşdırılıb. O, rəsmi "Teleqram" kanalında yazıb: "Ukrayna sülhə, uzunmüddətli və qeyd-şərtsiz atəşkəsə hazırdır. Biz də ən yüksək səviyyədə görüşlərə və danışıqlara hazırıq. Ukrayna nümayəndə heyəti qeyd-şərtsiz atəşkəsə nail olmaq üçün bu gün İstanbuldadır - bu, bizim prioritetimizdir". A.Yermak əlavə edib ki, Ukrayna Prezidenti Volodimir Zelenski ilə müəyyən səbəbdən Türkiyəyə gəlməyən Rusiya lideri Vladimir Putinin birbaşa görüşü də mühüm məsələdir.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp Vladimir Putinlə görüşün "biz bunu təşkil edə bilən kimi" keçiriləcəyini bildirib. Onun sözlərinə görə, "iki-üç həftəyə həll yolu tapıla bilər" və o, Rusiya və Ukrayna arasında İstanbuldakı görüşün nəticələrini gözləyir. Qeyd edək ki, ABŞ lideri artıq Yaxın Şərq turunu başa vurub və Türkiyəyə səfər etməyib.

Bu arada ukraynalı diplomat və siyasətçi Roman Bessmertnı İstanbulda keçirilən danışıqların "tamamilə hazırlıqsız" olduğunu qeyd edib: "Müxtəlif tərəflərin dediklərinin hamısını bir yerə yığsanız, "yeyə bilməyəcəyiniz bir salat" alacaqsınız. Bu, bombalar, ideyalar, xəyallar və s. toplusudur. Danışıqlar prosesi baxımından ikidən çox məsələnin müzakirəsi planlaşdırılırsa və qarşıya aydın bir məqsəd qoyulmayıbsa, bu o deməkdir ki, danışıqlar heç bir nəticə ilə bitməyəcək". Politoloq hesab edir ki, atəşkəsi gözləmək lazım deyil. Eyni zamanda bu o deməkdir ki, görüşdən sonra Avropa ölkələri əlavə sanksiyalar mexanizmini işə salmalıdır. Bessmertnının fikrincə, "burada Avropa, Ukrayna və ABŞ-nin hərəkətlərinin sinxron olması vacibdir ki, Vaşinqton da sanksiyalar paketinə qoşulsun".

Danışıqlara Marko Rubio da münasibət bildirib: "Ukraynada müharibəni bitirmək üçün yalnız bir şans var - Tramp və Putinin şəxsi görüşü. Aylarla işlədiyimizi nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, Tramp Putinlə üzbəüz oturana və "kartı masaya qoymayana" qədər heç nə baş verməyəcək".

Rusiya və ABŞ prezidentlərinin şəxsi görüşü, şübhəsiz ki, zəruridir, lakin bu cür danışıqlar ciddi hazırlıq tələb edir. Bunu isə Rusiya liderinin mətbuat katibi Dmitri Peskov brifinqdə deyib: "Belə bir görüş, şübhəsiz ki, lazımdır. Zirvə görüşü hazırlanmalı və məhsuldar olmalıdır". D.Peskov diqqəti zirvə görüşlərinin əvvəlində həmişə ekspert danışıqları, məsləhətləşmələr və uzun, gərgin hazırlıq keçdiyinə diqqət çəkib. O, Rusiya Federasiyası və ABŞ prezidentləri arasında təmasları Ukrayna münaqişəsinin həlli üçün son dərəcə vacib adlandırıb. "Əlbəttə, prezidentlər arasında təmaslar Ukrayna nizamlanması kontekstində son dərəcə vacibdir", - deyə Peskov ABŞ Dövlət katibi Marko Rubionun bu görüşün münaqişənin həlli üçün son şans olduğu barədə sözlərini şərh edərkən bildirib. Əlbəttə ki, biz bu tezislə razıyıq. Bunun əhəmiyyətini qiymətləndirməmək olmaz", - deyən Kremlin sözçüsü vurğulayıb ki, Rusiya və ABŞ prezidentləri arasında gözlənilən şəxsi görüşdə müzakirə mövzuları ikitərəfli münasibətlər, beynəlxalq problemlər və Ukraynadakı regional böhran olmalıdır.

İstanbuldan verilən son məlumata görə, ukraynalı diplomatlardan biri "Reuters" agentliyinə bildirib ki, Rusiyanın danışıqlardakı tələbləri real deyil və "əvvəllər müzakirə edilənlərdən kənara çıxır". Belə ki, Moskva digər məsələlərlə yanaşı, Rusiya Federasiyasının tərkibinə "daxil olmuş" regionlardan Ukrayna qoşunlarının çıxarılmasını tələb edir. Mənbə Moskvanın digər tələblərinin də yerinə yetirilməsini mümkünsüz adlandırıb.

Verilən məlumata görə, Rusiya nümayəndə heyəti Ukrayna tərəfi ilə aparılan danışıqların nəticələrindən razı qalıb. Bunu Vladimir Medinski bildirib. Onun sözlərinə görə, Moskva Kiyevlə təmasları davam etdirməyə hazırdır. Tərəflər gələcəkdə mümkün atəşkəs haqqında öz baxışlarını təqdim etməyə razılaşıblar.

Danışıqlar zamanı genişmiqyaslı əsir mübadiləsi barədə razılıq əldə olunub - hər tərəfdən min nəfər.

Medinski bildirib ki, Ukrayna tərəfi dövlət başçıları arasında birbaşa danışıqların aparılmasını istəyib. Rusiya nümayəndə heyəti bunu nəzərə alıb.

Ukrayna nümayəndə heyətinin rəhbəri, müdafiə naziri Rustem Umerovun bildirdiyinə görə, danışıqlarda ilk növbədə atəşkəs məsələsi müzakirə olunub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Prezident İlham Əliyev Albaniyaya işgüzar səfərə gedib
Ədalətə, milli maraqlara və beynəlxalq hüquqa əsaslanan siyasət
Azərbaycan xalqı və dövləti Pakistanla həmrəydir
Azərbaycan ilə Albaniya arasında dövlətlərarası münasibətlərin səviyyəsi məmnunluq doğurur
Azərbaycana dünyada nüfuz və ehtiram gətirən səbəblərdən biri məhz budur
Azərbaycan yeni orta güc kimi: geosiyasi özəlliklər
Fransa beynəlxalq öhdəlikləri güc tətbiqi ilə pozur
Azərbaycan ikili standartlarla daha çox üzləşən ölkədir

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Gizli təhlükə - qlüten

**Son dövrlər qlütensiz qidalar ifadəsini tez-tez eşidirik. Market rəflərində "qlütensiz" nişanı ilə satılan məhsulların sayı günbəgün artır. Bəziləri onu "gizli düşmən" adlandırır, digərləri isə gündəlik qida rasionunun ayrılmaz tərkib hissəsi kimi görürlər. Bəs qlüten nədir?**




Qlüten buğda, arpa və çovdar kimi taxıllarda, həmçinin un, buğda nişastası, bulqur, çörək və makaron məmulatlarında olan, qidalara elastiklik verən təbii proteindir. Ona yalnız taxıl bitkilərinin tərkibində deyil, eyni zamanda bir çox ət əvəzediciləri, kartof qızartması, işlənmiş ətlər, bulyon və souslarda, pivə və digər alkoqollu içkilərdə, habelə dərman və bitki əlavələri kimi qeyri-ərzaq məhsullarında rast gəlmək mümkündür.

Bu zülal normativ qaydalara uyğun qəbul edildikdə zərərli deyil. Əksinə, sağlam insanlar üçün zülal, lif və bir sıra vacib vitamin və minerallarla zəngin qlüten ehtiva edən məhsullar faydalıdır. Qlüten müəyyən taxılların tərkibindəki lif və protein qarışığı sayəsində faydalı bakteriyalar üçün qida mənbəyinə çevrilir. Bu da bağırsaq florası və qida intoleransı məsələlərində balansı qorumağa yardım edir.

Ehtiyac olmadan qlütensiz pəhrizə keçmək bəzi qida maddələrinin çatışmazlığına səbəb ola bilər. Tədqiqatlar nəticəsində müəyyən olunub ki, uzun müddət tam taxıllı qidaların istehlakının azaldılması ürək-damar xəstəliklərinin yaranması riskini artırır. Bəzi insanlar arıqlamaq məqsədilə qlütensiz pəhrizlərə üstünlük verirlər. Qlüten istehlakını azaldan bu insanlar özlərini daha enerjili hiss etdikləri ni və arıqladıqlarını söyləsələr də, bu, qlütendən tamamilə imtina ilə deyil, daha nizamlı və sağlam pəhrizlə əlaqəlidir.

Qlüten bir çox insan üçün təhlükəsiz olsa da, bəzi şəxslərdə ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Xüsusilə çölyak xəstəliyi, qlüten allergiyası və həssaslığı olan şəxslər üçün bu zülalın istifadəsi orqanizmdə mənfi reaksiyalara yol açır.

Çölyak xəstəliyi zamanı bədən qlüteni yad maddə kimi qəbul edir və bağırsaq toxumasına hücum etməyə başlayır. Nəticədə nazik bağırsaqda zədələnmə, qida maddələrinin mənimsənilməsində çətinlik və iltihab meydana gəlir. Bu da qlütenin həzm sisteminə təsiri baxımından ciddi bir təhlükə yaradır. Çölyak xəstələri üçün qlütensiz qidalanma yeganə müalicə yoludur. Əks halda qarın ağrısı, ishal, çəki itkisi və dəmir çatışmazlığı müşahidə olunur. Bu vəziyyət bağırsaq florasını pozaraq digər xəstəliklərə zəmin yaradır. Çölyakdan əziyyət çəkən insanlarda protein qəbulu xroniki halsızlıq və depressiya kimi psixoloji nəticələrə də səbəb ola bilər. Mütəxəssislər qlütensiz pəhrizlə onların həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldiyini bildirirlər.

Çölyak xəstəliyinin simptomları uşaqlarda və böyüklərdə fərqli ola bilər. Belə ki, xəstəlik yetkinlərdə ishal, yorğunluq, çəki itirmək, şişkinlik, qarın ağrısı, bulantı və qusma, qəbizlik kimi əlamətlərlə özünü büruzə verir. Çölyak xəstəliyi olan yetkinlərin əksəriyyətində həzm sistemi ilə əlaqəli olmayan əlamətlər də müşahidə edilir. Məsələn, dəmir çatışmazlığından qaynaqlanan anemiya, sümük sıxlığının itirilməsi və ya sümük yumşalması, dəri döküntüsü, ağız yaraları, baş ağrısı və yorğunluq və oynaq ağrısı. Uşaqlarda isə xəstəlik qusma, xroniki ishal və qəbizlik kimi əlamətlərlə birlikdə inkişaf yetərsizliyi, diş minasının zədələnməsi, çəki itirmək, anemiya, qısa boy və gecikmiş yetkinlik kimi simptomlarla özünü büruzə verir.

Çöylak xəstəliyi olmayan, lakin qlütenə qarşı həssas olan, onu qəbul etdikdə müxtəlif mədə-bağırsaq problemləri və baş ağrıları yaşayan insanlar da var. Qlüten həssaslığının simptomları şəxsdən asılı olaraq, fərqli şəkildə özünü göstərə bilər. Xəstəliyin əlamətləri hiss edildiyi təqdirdə yalnız dəqiq diaqnoz qoyulduqdan sonra qlütensiz qidalanma tətbiq etmək lazımdır.

Bütün bu məlumatlar fonunda belə nəticəyə gəlmək olar ki, qlüten insana nə dostdur, nə də düşmən. Onun təsiri insanın orqanizminə və fərdi sağlamlıq vəziyyətinə görə dəyişir. Buna görə də qlüteni gündəlik qida rasionundan tamamilə çıxarmadan öncə mütəxəssislə məsləhətləşmək vacibdir. Belə yanaşma həm qidalanmanın balanslı olmasını təmin edər, həm də orqanizm üçün vacib qida maddələrinin çatışmazlığının qarşısını alar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## "Bakı Rail-Trans" QSC-nin səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 11:00-da **"Bakı Rail-Trans" QSC-nin** səhmdarlarının ümumi yığıncağı keçiriləçəkdir.
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi, ev 137, mənzil 80-nin inzibati binası.

**Yığıncağın gündəliyi:**
**1. "Bakı Rail-Trans" QSC-nin 2024-cü il üzrə maliyyə təsərrüfat fəaliyyəti haqqında.**

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***"Bakı Rail-Trans" QSC -nin İdarə Heyəti***

## "Göradil Quşçuluq" ASC-nin səhmdarlarının nəzərinə!

20 iyun 2025-ci il saat 15:00-da **"Göradil Quşçuluq" ASC-nin** səhmdarlarının ümumi yığıncağı keçiriləçəkdir.
Ünvan: Abşeron rayonu, Göradil kəndi, "Göradil Quşçuluq" ASC-nin inzibati binası.

**Yığıncağın gündəliyi:**
**1. "Göradil Quşçuluq" ASC-nin 2024-cü il üzrə maliyyə təsərrüfat fəaliyyəti haqqında.**

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***"Göradil Quşçuluq" ASC-nin İdarə Heyəti***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyində olan gəmilərə quraşdırılacaq olan temperli illuminator şüşəsinin quraşdırılması xidmətlərinin (şüşəsinin sökülüb yenisi ilə əvəz olunması və mal, material daxil) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 may 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1171.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov N.Tusi adına Klinikanın şüa diaqnostikası üzrə həkimi Telman Əzimova anası

**GÜLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış, 932-ci qrupunun məzunları qrup yoldaşları

**ALMAZ ƏHMƏD QIZI NAMAZOVANIN (MUSAYEVA)**

Zaqatala rayonunda vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3569
Sifariş 976

Qiyməti 60 qəpik